Əbülfəz Əhməd

# Üç dörd kəlmə...

Bakı – 2023

Redaktor: Ramiz İsmayıl

Rəy və məsləhətçi: İbrahim İlyaslı
(Əli Kərim adına Poeziya evi, direktor)

Əbülfəz Əhməd "Üç dörd kəlmə".
Bakı, "Maarif", 2023, 116 səh.

Əlinizdəki bu kitab – "Üç dörd kəlmə" – Əbülfəz Əhmədin sayca altıncı kitabıdır. Zəmanəmizin aktual mövzularının milli və klassik ənənələrə əsasən işlənmiş olmasını hiss edərək məmnun qalacağınızı düşünərək növbəti dəfə görüşünüzə gəldik. Fikirlərimizi qısa və lakonik şəkildə hörmətli oxucumuza çatdırmağa çalışmışıq.

İSBN: 978-9952-445-24-3

**Redaktordan**

# "ÜÇ DÖRD KƏLMƏ"DƏN SONRA BİR NEÇƏ SÖZ...

Növbəti kitabına şair Əbülfəz Əhməd belə ad seçib: "Üç dörd kəlmə". Qəribə səslənir, eləmi? Amma mən heç təəccüblənmədim. Əbülfəz Əhmədin şeirləri də, kitablarına verdiyi adlar da özü kimi qəribədir. Bundan əvvəlki kitabını "Gəldim..." adlandırmışdı. Orijinal ad deyilmi? İndi də "Üç dörd kəlmə". Mən indi belə təxmin eləyirəm ki, Əbülfəz Əhməd düşünərəkdən belə ad qoyub "Gəldim..." ki, "Üç dörd kəlmə" deyim. De, şair, de, dilinə qurban! Onsuz da şair bolluğundan, şeir qıtlığından, oxucu həsrətindən əziyyət çəkirik. Kitablarının adı da qəribədir, şeirlərin də. Bu qəribəliyi oxucuların hiss edəcək.

*"İş görməkdən daha çox biz danışan olmuşuq,*
*Dünyanın dərdi çoxmuş, biz pərişan olmuşuq.*

Bax elə bu "Üç dörd kəlmə" ilə şair fikrini ifadə elədi. Əli qələm tutan yapışsın bu misralardan dünyanın dərdi-sərini bir "sijilləmə" yazı ilə bəyan eləsin.

Dünyanın dərdini çəkib qurtarmamış qəfildən:

*Hərdən-birdən minnətim yarə də pulsuz deyil,*
*Ağ günlərim bitəndən qarə də pulsuz deyil.*

Ay Allah sənə kömək olsun, heç umu-küsünün yeridirmi? Böyük dahimiz əbəs yerə demirdi ki, "pulsuz kişi, insanlığı asanmı sanırsan?" Sən ondan çox bilməyəcəksən ki?! Özün etiraf eləmisən də-ə:

*"Məndə ağıl həmişə peyda olur sonradan*
*Mən "ağıllı" olanda, tülkü çıxmaz aradan".*

Tülküynən-zadnan nə işin var? Tülkülərin əlini divara bağlayanları qoyub tülkü bədbəxti qınayırsan! Öz işindi. Arxayın-arxayın yazırsan:

*"Hər müşkülün bir açarı, hər bir işin var axırı,*
*Kim nə qədər gizləsə də, bir gün çıxar paxırı".*
*Bir də ayılıb gördün ki,*
*"Dedilər xamdı bu şair, əldə ərizə gəlir*
*Kim verib səmti buna, kim verib icazə, gəlir?"*

Burda "ərizə" sözünü yəqin "ərz" kimi işlətmisən: yəni, ərz eləmək. Amma bu söz mənim qolumdan tutdu. Bir neçə ay bundan əvvəl Yazıçılar Birliyinə verdiyin ərizə yadıma düşdü. Üç nəfər tanınmış şairlərdən də zəmanət aldın. Yaşının bu vaxtında sən də o müqəddəs

bildiyimiz, ocaq-pir saydığımız birliyin üzvü olmaq istədin. Nə gözəl! Haqqın var. Mən bilə-ni altı kitabın, yüzlərlə şeirin müəllifisən. Özü də milli və klassik ənənəni göz bəbəyin kimi qoruyursan! No-oldu? Kitablarına mənfi rəy verib səni birliyə qəbul etmədilər. Niyəsini mən bilirəm. Sənə deməyəcəm get özün öyrən. Birlikdə yaxın qohumun, samballı tanışın sözünü deyə bilən adamın varsa “giriş, yoxsa sürüş”. Mən sənə olanı dedim, qalanını özün bilərsən.

Söz-sözü gətirdi ey-y, bəlkə heç yeri deyildi.

Keçək indi kitabdan danışaq. Mənə etibar elədin-dedin “ön söz” yaz. Mənim gözüm üstə. Dedin “çox tərifləyib gopa basma”. Bu da mənim gözüm üstə. Dedin kitabı eninə də “şumla”, uzununa da. Sənin xətrinə onu da elədim. Gördüm sənin “məhsulların” dəmyə torpaqda yetişib. Dəmyə torpağın məhsulu da özün bilirsən: ləzzətlisi də olur, dadsızı da olur, içində alaq otları da olur. Hər halda yaxşısı, keyfiyyətlisi daha çox olur. Ona görə ki, torpaq halallığı sevir. Sən də halallığı sevdiyin üçün həmişə ortaya yaxşı, dəyərli məhsul qoymaq istəyirsən. Bu kitabında da sənə məxsus yumorla, az sözlə çox fikir ifadə eləməyə çalışmısan. Deyirsən:

*Bu necə bir sözdür, bu necə sovdur,*
*Bizim Vətən maraqlara girovdur?!*

Güclü dövlətlərin iyrənc siyasətlərinin qurbanı olmuşuq. Hanı haqq-ədalət, hanı demokratiya!? Bu demokratiya sözü kiçik dövlətlərin boynunun ardında Domokl qılıncına dönüb. Əgər belə olmasaydı bir ovuc əsli-zatı, nəcabəti olmayan dığanın əlində girinc olmazdıq. Güclü dövlətlər də bu əl tulalarından öz məqsədləri üçün vasitə kimi istifadə edirlər. Sən də bir şair kimi, bir vətənpərvər ziyalı kimi etirazını şeirlərinlə bildirirsən. Bir az kobud səslənsə də qeyd edəcəyəm:

*"Ay mənə atəşi kəs deyən Eşşək,*
*Sənin də məramın aydındır bişəkk".*

İki misralıq aforizmlərində şeiriyyət də var, obrazlı fikir də.

Əbülfəz Əhmədin üç misralıq şeirlərinə nəzər yetirək: Tamahı qılıncdan iti olan, ancaq mənim olsun deyən gözüdoymayan harınları Əbülfəz üç misra ilə belə təqdim edir:

*"Qazlar onunku idi*
*Qaz uçdu, qarğa qondu,*
*Qarğalar da onundu".*

Necə səlis deyildiyini bildirsəm, yəqin ki, razılaşarsınız. Bir-iki nümunə göstərib keçəcəyəm dörd misralıq şeirlərə:

*“Birinə mebel olar,*
*Meşələrdə palıdlar,*
*O birinə tabutlar”.*

*“Kasıb cırıq qaloşda,*
*Varlı pərqu balışda,*
*Vətən bizi bağışla”.*

*“Əl öyrənib kəsməyə -*
*Biri təndir çörəyin*
*Biri xalqın gərəyin”.*

Məncə bu nümunələr müəyyən qənaətə gəlmək üçün kifayət edər.

Məlum zərb-məsəli Əbülfəz Əhməd belə ümumiləşdirib.

*“Pendiri dəriylə, arvad əriylə,*
*Saxlamır tarixi etibariylə.*
*Yerli də, yersiz də olsa soruşaq,*
*Balam, bəs kişini kim saxlayacaq?*
*Başqa bir nümunəyə diqqət yetirək:*
*Bir də evlənəndə tərsa qız alma,*
*Əmindən ibrət al, bir dayına bax,*
*Məndən söyləməkdir, nigaran qalma,*
*Yurduna mələzlər sahib olacaq.*

Daha istəyirəm fikirlərimi yekunlaşdıram. Şair Əbülfəz Əhmədin kitabını oxumağa dəyər.

Sizi yormayım, yaxşısı budur özünüz oxuyun və qiymət verin. Bu "ön söz" də məzəli oldu. "Üç dörd kəlmə" kitabına bir neçə söz yazmaq istəyirdim – belə alındı.

Yeni kitabının işıq üzü görməsi münasibətilə şair dostumu təbrik edirəm. Əbülfəz Əhməd şairdir – Yazıçılar birliyinə qəbul eləsələr də, eləməsələr də.

**Hörmətlə: Ramiz İsmayıl, Xırdalan şəhəri,**
**13.11.2023-cü il.**

*Əbülfəz söz ardı olaraq deyir:*
*"Bizim nəyimizə oğul deyirsən,*
*Ey Vətən, heç nəyin ola bilmədik.*
*Zülüm, əsarətdə sən inləyirsən*
*Bizlər səngərlərə dola bilmədik.*

Başını uca tut Əbülfəz Əhməd, qələmə güc ver, Qarabağ Azərbaycandır!

## QOŞA SƏTİRLƏR

İş görməkdən daha çox, biz danışan olmuşuq,
Dünyanın dərdi çoxmuş, biz pərişan olmuşuq...

***

Hərdən-birdən minnətim yarə də pulsuz deyil,
Ağ günlərim bitəndən qarə də pulsuz deyil.

***

Məndə ağıl həmişə peyda olur sonradan,
Mən "ağıllı" olanda, tülkü çıxmaz aradan.

***

Dərə xəlvət olanda bəylik edər tülkülər,
Millətin hər nəyi var, dağıdılar, sökülər...

## İNSAN HAQLARI BƏYANNAMƏSİNƏ İZAH

Kim deyir biz insanın haqqını tapdaladıq,
Sadəcə onun boynunu burduq, qatdaladıq...

## PARTAPART

Səndən insaflı imiş o Napoleon Bonapart,
Sən ondan da betərsən, gah ona part, gah buna part...

***

İncə sənətimiz ey dil, necə qalın meşədi,
Meymunu, üryanları bir sürü, qulaq şeşədi.

## DƏDƏ-BABA DOSTUM QASIMA

Dostluqda alidir sənin dərəcən,
Bunun da sübutu kamil şəcərən!

***

Ayağından öpməli ağ olanda üzünə,
Onu tapşır Allaha, burax çölün düzünə...

***

Bizlər yurdu elədik bir tolerant poliqon,
Onunçün də boy verdi, xeyli casus legion...

***

Təvazö yaxşı şeydir, ancaq ola həddində,
Xalqa deməli sözü, qoyma qalsın dilində.

## 11, 20...

Bir vaxt abidə qoyduq on birinci "qızıla",
Tarix dedi səhvdir, iyirmi yanvar yazıla...

***

Savadın gücünə şeir yazırsan,
Yapış ilhamından, yoxsa azarsan!

***

Hər sevgi anında bir "məhkumluq" var,
Bəlkə "müttəhim"ə kürsü yazasan?!

***

Hər müşkülün bir açarı, hər bir işin var axırı,
Kim nə qədər gizləsə də, bir gün çıxacaq paxırı...

***

Dedilər xamdı bu şair, əldə ərizə gəlir,
Kim verib səmti buna, kim verib icazə, gəlir?

## QƏLƏM

Mənsəb sahibinə əymə qələmi,
"Şərəfin" ödəməz buna sələmi!

***

Hamısı naxırın adın batırır,
Day bizim örüşdə dana qalmadı...

***

Qanlı döyüşlər vaxtı, ey pərquda qızınan,
Murdar dili uzatma, Türkün kişi qızına.

***

Halalda, haramda yoxdu məzənnə,
Əxlaq dərsi vermə üryan gəzənə.

***

Haqqı tələb eləmək gəlmədikcə ağlına,
Özün bir qul olursan başqasının oğluna...

***

Vardı sağlığında mane olanım,
İndi də ruhudur çıxmaz, dalanım...

## VƏZİFƏ BAĞLILARINA

Bunu yazmaq lazım deyil bəlkə də,
Sizdən başqa adam yoxmu ölkədə?!

***

Bizdə çətin doğulur həqiqətlər anadan,
Cərrah bıçaq vurmasa çıxmayır ki, o candan.

***

Sünnət, bilirik axı, ən ucundan, qıraqdan,
Armen kirvə yurduma, sünnəti tam ortadan.

***

O vaxt Dərviş olaydı, kaş Parisi partladan,
Müsyö Jordan nə umdu, Məstəli tək qudadan?

***

Bizi yana-yana qoydun ay Ana,
Uğurlar dərgaha gedən yoluna!

***

Otuz ildir hərb əkib, indi bəhrəsin biçir,
Sülhə gedən yol ki, var, o da silahdan keçir!

***

Mən bir haray salanda, səbr edib gözlə dedin,
İndi növbə sizindir, bir otuz il səbr edin!

***

Yol açılır, gəlin keçin qabağa,
Gedən çoxdu Şeylanlıya, Zabıxa.

***

Gözün aydın olsun Adil Cəfakeş,
Belə bir sevinci yaşadınmı heç?!

***

Bu düşmən necə də görün qarımış,
Yurd versən, Vətən də istəyi varmış!..

***

Sülhü məram etdik, silah susacaq,
Hanı, bəs deyirdin Vazgen çıxacaq?!

***

Elmin mənbəyidir, kim eləyir şəkk,
Kitab ağır yükdür, bilməz hər eşşək!

***

Güc alaraq gümanlardan, bəlkədən,
Çox siyasi artıq çıxır kölgədən.

***

Adımı dəftərə yazmadə əmim,
Heç sən də yazmasan sınmaz qələmim!

***

Oğulların bir-birinin bəhsinə,
Güc veribdir şəhvətinə, nəfsinə.

***

Armen dünya evində çoxumuzun qaynıdır,
Biz baxmasaq sözünə, arvad üzə qayıdır!

***

Kasıb yaşam tərzinə düzəlişlər eləyir,
Büdcəni yağmalayan gözəl işlər eləyir.

***

Özünü düzəldə bilmiriksə biz,
Varmı bu dünyada ayrı işimiz?!

***

Gözlədiyim qalacaqsa gözümdə,
Hansı səbir belə işə çözüm, de!

***

Bir daha əyilməz dağ vüqarımız,
Hələ göylərdədir "Bayraqdar"ımız!

***

Atəşə kəs deyərək sülhü bəlağət elədik,
Donuz çıxar darıdan, böylə xəyalət elədik.

***

Qazilik qismət olsun səngərimdə yatana,
Mənim borcumu verir, Ana yurda, Vatana!

***

Bəs dedilər sülhdü sənin məramın,
Bu torpaqda gəzmək olsun haramın.

***

Bədəli on qatdır tökülən qanın,
Yoxsa zənn elədin "zərər niçeqo"?!

***

Biz cənnətdən pay verəndə "qonağa",
Ürf, adəti yük elədik ulağa...

***

İmanı demirəm, haqdan ayıbdır,
Mən sənin səbrinə iti bağlayım...

## VƏTƏNƏ

Şəhidin oluruq əgər üşüsən,
Neyləyək, sən təkcə bizim üçünsən.

***

Vurduq başın ağıllısın,
Gedib bir az ağıllansın!

***

Sən deyən yol ilə gedirəm ki, mən,
Mənim bu yoluma işıq səpəsən.

***

Bu əllinin belin yaman qatladın,
Ağ birçəyin, qalan ömrə qat dadın!

***

Sizə salam olsun ey perik ruhlar,
Şəhidlər gətirdi, müjdə soraqlar!

***

Fövtə verib gör nə qədər fürsəti,
Yurdumuza şərik etdik hər iti...

***

Üstündən keçmədi hələ qərinə,
Şəhid ruhlarımız dönür yerinə!

***

Biz hesaba aldıqca hər böyüyü, kiçiyi,
Hürdü bizim karvana bir dərənin küçüyü.

***

Yurdda istəsən əgər, sən də sülhü, salahı,
Bircə yolu var bunun, hazır saxla silahı!

## ORDUMUZ

Yalanı Paşik kimi sıxışdırıb bucağa,
İnşallah qoymaz gələ, hər namərdi ocağa!

***

Varmı elə məmurun, gün ağlasın halına,
Ucuz suyun qiyməti, qalxdı ceyran dalına!

***

Mətləbə çatmaq üçün, yol hərədə bir cürədir,
Bu yola çıxmağa cəhdi, hərə də bir cür edir...

***

Kim ki, əmcəyinin kəsir giləsin,
Az qalır o axan qanı da əmsin!

***

Sən ey bu dünyadan ədalət uman,
Bura cəza evi, məhbusu baban!...

## ÇATIŞMAZLIQ...

Sahədə ağladıb düşmən anasın,
Uduzuruq danışığın masasın...

***

Yol olmaq o qədər, yaxşı deyilmiş,
Üstünə nə qədər namərd çıxacaq...

***

Nə qədər bədgüman olsan sələfə,
Eyni bir gümanın olsun xələfə.

***

Birinin dilində gələndə doğru,
Üstünə hürüşür minlərlə oğru...

***

Ay eloğlu,  bu yad elli arvadın,
Səbəbidir bu şah yurdu bərbadın.

***

Kimə qardaş deyirəm heyif dönür bacıya,
Sonra açır yaşmağın hər mollaya, hacıya...

***

Biz görmüşük hər yerdə hesab-kitab edərlər,
Bizdə hesab edənlər, kitab nədir, bilmirlər...

***

Zəngin qapısında sülənsən əgər,
Ey yoxsul, səndən də yoxdu bir betər!

***

Şam olmaq sənə də asan gəlməsin,
Sən işıq salmazsan yana bilməsən!

***

Alimi ziyarət eləyən zəngin,
Dəyərin bununla ucalır sənin.

***

Qovduq yurdumuzdan nankor itləri,
Qaldı arxasında ayı ləpiri.

***

Bu necə bir sözdür, bu necə sovdur,
Bizim Vətən maraqlara girovdur?!

***

Kim yuyacaq babamızın babalın,
Sayı bilinməyir fərsiz oğulun?!

***

Döyüşdə uduzmaq ölüm ha deyil,
Şərəf çarəsi var halal qisasda!

***

Siyasi səbata mənafe yükdü,
Qoydum tərəziyə çox ucuz çəkdi...

***

Kimə desən açıq aşkar qüsuru,
Həmən peyda olur hay qohumu, bir sürü.

***

Bəd oğulun qandal olur qoluna,
Qoca millət, nə deyək bu halına?!

***

...Bəs bu imiş qovğa sənin uğruna,
Ögeylərdən məlhəm olmaz ağrına...

## TƏRS MÜTƏNASİB

Birdən bizim birimiz, söyləsə bir doğru söz,
Yerbəyerdən bərələr ona minbir oğru göz!

***

Alimə fındıqbaş deyən yazarın,
Adına nə desən, vallah yazarım!

***

"Yaraşıqlar" yenə çıxdı meydana,
Yaxın durmaq olmur balam, ekrana!

## 190 MANAT

Bütövünü görmədik, əl də dəymir parana,
Səni necə xərcləyir pandemiya, korona?!

***

Sağaltmağın yerinə artırır cərimәni
İki gözdən olasan, bizim milli erməni!

***

Yoxsa buna deyirlər toydan sonra nağara,
Xankənddə "sülh məramlı", özün verir "zaqara"?!

***

Bir vaxt qolumuzu tutan kirvənin,
Namərd oğulları tutub yolumu...

***

Vardır bəxtimizdə səltənət qurmaq,
İndi bəxtə düşüb kor iti qovmaq.

# RADİKAL QONAĞIN STATUSU

Ya bir qonaq kimi, sən yaşa burda,
Ya da ki, çox rahat olarsan gorda!

***

Bu sözü də söylədilər axırda,
Gec gələnlər nə tapacaq axurda?!

***

Hər ziyanda bir xeyir, hər xeyirdə bir ziyan,
Qüssə ha yandan gəldi, belə bəlli binadan.

***

Hərçənd düşər şənbəyə novruz əyyamidə,
Var təqvimi bunun Öməri Xəyyamidə.

***

Öyrənmişik nədənsə hər yetənə pir deyək,
Bizim işin üstünə ağız dolu hür deyək.

***

Heyif söyləməyin, "tez" ölənlərə,
Onlar bizdən qabaq haqq yolçusudur!

***

Bizim başımıza daim vurub qapazı,
Yad ellərin ya pastoru, papazı...

***

Bəs dedilər quş dilin ancaq Süleyman bilir,
Bizim quşun dilini, kirvəmiz İvan bilir.

***

Əxlaq dərsin kim verib, burda üryan gəzənə,
Burda halal-haramda, yoxdur axı məzənnə?!

***

Gör kimə ögeysən, gör kimə doğma,
Ey Vətən, oğlunu məhbəsdə boğma!

***

Yenə peyda olub köhnə vəkillər,
Armen gəlsin deyə nalə çəkirlər...

***

Hörmətlə anmayıb şəhid olanı,
Yaman çoxalıbdı dil pəhlivanı...

***

Onsuz da öz evində əsir olan milləti,
Ögey oğullarımız düçar edir zilləti.

***

Pəh! Nə qədər qəlizmiş nənəm doğan oğullar,
Birini susdurursan, o birilər cuğullar...

***

Bayrağımı bəyənmir, himnimə dil uzadır,
Atasının ötəri həvəsinin məhsulu...

***

Vardır qınından çıxıb bəyənməyən qınını,
Yanını qaldırmamış üfunətdir hər yanı.

***

Yedək eləmək olmaz boz tülküyə boz qurdu,
Boz tülkülər xaraba, qoyar yoxsa bu yurdu!

***

Elə bil ki, alnına yazılıbdır kişinin,
Öhdəsindən gələcək o, satqınlıq işinin.

***

Boz ulağa yükləmişik namusu,
Ağnayaraq məhv elədi hamısın.

***

Bunlar kişiliyə yer qoymadılar,
Yağdırın başına leysan "qradlar".

## TARİF ŞURASINA

Sən qiyməti qaldırıb zülüm vermə bu xalqa,
İki bükülən belim bir də çətin ki, qalxa...

***

İki eşşək arpasın bölən yaman çoxalıb,
Hamısın özü yeyər, yamanca bədxah olub...

***

Qiymətləri qaldırdıq yenə ceyran dalına,
Bu ceyran da inləyir yazıq insan halına.

***

İtdən həya umardıq, məsçidə girməz deyə,
İndi məsçidlər bağlı, bir insan girməz. Niyə?!

***

Bu donuz darıdan çıxası deyil,
Zərbini dadmasa qurd pəncəsinin!

***

Saya salsa atasını, qardaşın,
Açıb buraxmazdı sözünün başın...

***

Varlığın bir dərman deyilsə mənə,
Yoxluğun dərdimə dönməz ki, yenə...

***

Bu gözəl, yalançı dünyada mənim,
İzim çoxaldıqca vaxtım azalır...

***

Bunu yaxşı bilir bu qoca bəşər
Türkün həmləsiylə dünya dəyişər.

## FƏRQİMİZ

Orda yağış yağanda tər-təmizdir küçələr,
Bizdə qayıq lazımdır, gölməçədən keçələr.

## 65, 80. 90...

Qayırdığın qanunu kor gözünə soxsana,
İşləməyin yaşını qaldır səksən, doxsana...

***

Madam ki, elədin bütə pərəstiş,
Cahillik qoxuyar gördüyün hər iş...

***

Alim deməyə də dolanmır dilim,
Zənginin qapısın kəsirsə alim.

***

Onun, bunun yurdunda muxtar vilayət quran,
Yaman pis günə qalıb bizim qaynımız İvan!

***

Günahsız qırğınlar dönüb gerçəyə,
Burda nə ehtiyac var tərcüməyə?

## COVİD-19

Nə vaxtdan ki, bu virus, bizi aldı cənginə,
Qulağımız alışdı, arvad-uşaq dənginə.

***

Palaza büründük elnən sürünək,
Bəs palaz sürüşsə, onda nə edək?!

***

Onlar tindən çıxanda zəncirində küçüyü,
Bizlər tindən çıxanda qucağında kiçiyi.

***

Açıq-aşkar pozulursa qanunlar,
Hələ görün gizlinlərdə nələr var?!

***

Ay mənə atəşi kəs deyən Eşşək,
Sənin də məramın aydındır, bişəkk.

***

Silah yollayırsan terrorçulara,
Sənə də, terrorçu, deyim bu ara.

## KİMİN Kİ,

Zatında, kökündə vardır qarışıq,
Bizlər qucaq açıb alqışlamışıq...

***

Bizlər belə anladıq işlərin axarından,
Üç-dörd saman çöpü var, eşşəyin axurundan.

***

Bizdə elmin işığı, onsuz da gur deyildi,
Əsdi bir səmum yeli, yelkəni də əyildi...

***

Bir oğlun başını qoyur torpağa,
Bir "oğlun" bir baxil geyir ayağa...

***

Doyunca yemişəm ümid aşından,
Keçdi yeyənlərin çoxu başından...

***

Olsaydı vəslinə zərrəcə meylin,
Çarəsiz qalmazdı sənin tüfeylin.

***

Aləmi qarışdırıb sarıqulaq bir çoşka,
Dünya, həmdəmin varmı, bu qoca türkdən başqa?

***

Bu işlərə qolun gücü, zor baxar,
Xahiş ilə, donuz darıdan çıxar?!

***

Xalqın elə şairi var, heç nədi,
Şair də var xalq adına təşnədi.

***

Qiymətlər qalxıbdı ceyran belinə,
Maaş kor tısbağa, çatmaz yelinə...

***

Başqasının yuxusun evdə haram eləyən,
Olur bizim məhlədə "sülhü" məram eləyən...

***

Sən Qabilə oxşayıb tökmə Habilin qanın,
Sülhə təcavüz edən həmişə rusvay olur!...

***

Nə olsun ki, deyirdin bağ belə, bostan belə,
Laçının dəhlizində ümidi basdım yelə...

***

"Korona" qız uzanar,
Özünə don qazanar.

***

Bir kimsə deməsin dustaq olmadıq,
Qərargah əmriylə evə qapandıq.

***

Lap sonda bunu da təkrar qanmışam,
Sənə dost deməkdir mənim yanlışım!

***

Əbülfəz neynəyir dünya malını,
Gördü mal yığanın O, sən halını.

***

Hələ də ağrıyır könül yarası,
Soyuq gülüşlərin şirin çayından...

***

Mənim hər sözümün başını qovma,
Çəksən imtahana mən uduzmaram.

***

Keçərsən axından bir addım önə,
Arxana yapışar nə qədər gənə.

***

Bir kimsəni qınama, baxsam əgər keçmişə,
Bizdə qardaş qardaşa kirvə olub həmişə.

***

Yenə də başlayıb səlib yürüşü,
Vadidə üstümə itlər hürüşür.

***

Dünyanın qanunu bizlərə gələn,
Ən böyük həqiqət sonra söylənən.

***

Bu qiymətlər qoparır, hər gün yeni tozanaq,
Bahalaşdı qazımız, gəlin gedək qazlanaq.

***

Balam, bizə nə verir bu gələnlər,
Torpağımı eşələyib dələnlər?

***

Sərvətimiz fontan vurur sellənir,
Körpəmiz də kreditlə bələnir...

***

Xırman olur, var-dövlətim sovular,
Haqqı deyən özü işdən qovular.

***

Bu dünya əzəldən ölüm-itimdi,
Atalı, analı hamı yetimdi.

***

İmkan atın belində, bizlər qaldıq piyada,
Çoxlu şeyin şəhdini, biz çəkərik röyada.

***

O bir örtük deyil ki, həm də imkan ölçüsü,
Hamıya dəng gəlməyir, yorğanının ülgüsü.

***

Ali məktəb bitirəndən sonra da,
Müəllimlər imtahanı sırada.

***

Sinəmizə boşaldırlar darağı,
Bəlkə indi kal yuxudan durağın?!

***

Yenə dartıb qoparır qaysaq tutan yaramı,
Rusca belə adlanır, görən sülhün məramı?

***

Haqq, ədalət arama, sən axtarma, ay tapdın,
Onu axtaran insan, ürcah olub qəbrinə...

***

Ay Avropa müəllim, qeyrət dərsi bizdədir,
Bundan bir az sizdə var, mən biləni üzdədir.

***

Mən bu xalqı, milləti bəs nə qədər aldadım,
Atəşə kəs deyirəm, sən vurursan "soldatı".

***

Ən xoş iradım belə, bəs xoşuna gəlməsin,
Tarix dərsi keçənlər, bəs tarixi bilməsin?!

***

Başımın qiymətinə babamın "gəl" deməsi,
Anahidlər gələndən tüstü vermir demisi.

***

O qadın ki, hər şeydən üstün tutur ərkanı,
Vallah, təmənnasız olur ona can qurbanı.

***

Yüz il qabaq qırılıbsa milyonun,
Niyə bundan xəbəri yox dünyanın?

***

Həmsədrinin üçü dığa tərəfə,
Təklifləri uyğun gəlmir şərəfə.

***

Atəş vaxtı geritəpmə də olur,
Öz barıtın, öz qarnına da dolur...

***

İşində çox yanlış var, heç getmirəm irağa,
"Dom Feyzullı bomba est", deyib cumdun İraqa.

***

Saqqızın düşər oğlan ermənininin puluna,
Bundan birə düşəcək, palanına, çuluna.

***

Çalışma tullanasan öz boyundan yuxarı,
Hər əməlin sonu var, hər bir şeyin axırı.

***

Belə dostlar mən bilən ermənidən betərdi, -
Daimi mənafedə dostlar gəldi-gedərdi.

***

Yetənə yetə bilir, daş da atır çatana,
Başını xarab edib ya əcinnə, satana.

***

Uyur sənin fitnənə harda varsa bir səfeh,
Sən kimə arxayınsan, ay özündən müstəbeh?

***

Hara getdin o yerə aparırsan səfalət,
İşində ölçü yoxdur, amma boldu rəzalət.

***

Həqiqət yaxşıdır çılpaq olanda,
Ört-basdır çox olur gizli, yalanda.

***

Otuz min kafər gəlin evimizdə “xanım”dır,
Əcnəbidən gələcək Tükəzbanın elçisi?!

***

Yurdda oyun çıxarır əcnəbinin təkəsi,
Bizə şərəf gətirməz tarixin bu ləkəsi.

***

Babam divar dibində, daha çəkəmmir demi,
Anahidlər gələndən, artdı bu elin qəmi.

***

Yara qaysaq bağlayıb unudular deyirsən,
Onda niyə yurdundan, armenə pay vermirsən?!

***

Deyir həmsədrin biri, sən özün də gəlməsən,
Tarix dərsi keçənlər, bəs tarixi bilməsin?!

***

Bizim eldə hər bir işdə səbat var,
Arxivlərdə çoxlu dəlil, sübut var.

***

Ver onlara Marsel boyda bir ölkə,
Bəlkə bizdən sovuşa bu təhlükə.

***

Səbr qıldıq bu qədər, bəlkə Armen adəm ola,
Səbr tərkin qılağın, gəlmir Armen, madəm yola.

***

Şərəf saymır millətə qul olmağı,
Hikkəsinə qurban verir oymağı.

***

Çoxlu sözə yoxdu burda ehtiyac,
Kasıbların ehtiyacı bir qulac.

***

Səsi çıxmır, sanki olub daş-dəmir,
Hər şeyi bol, qarlı qışa qış demir.

***

Bizimkilər heç o qədər pis deyil,
Nə olsun ki, bir-birini pisləyir.

***

Sülhü yaratmaq üçün, qoy silaha sərmayə,
Beş-on iri çaqqal da, gəlib sənə hürməyə!

## TARİF ŞURASI

Su ilə imtahan eylər bizi də,
Bu minval bənzəyər Şümrə, Yezidə!

## ORDAN-BURDAN

Onlar tuturlar bizi, daim topa-tüfəngə,
Biz də cəhlə meyilli, gücü veririk əngə.
***
Onlar sırıyır bizə, çılpaq serialları,
Bizdə dönür Parisə, Bakının bulvarları.
***
Onlar deyir reallıq, sizin tale payınız,
Bizlər qorxuruq birdən inciyər Sem dayımız.
***
Onlar bizim torpağı daşıyırsa torbaynan,
Biz də önə çıxmalı, mükəmməl bir orduynan.
***
Orda vəzifəlilər, deyir ki, elmim olsun,
Bizdə alimlər deyir, gərək vəzifəm olsun.
***
Orda kafərlər dönüb, hərdən müsəlman olur,
Bizdə müsəlman dönüb, pastordan zaddan olur.
***
Hara getsən umurlar, səndən bir az "şirinlik",
Şirinliyi verməsən arada bir sərinlik.
***
Orda şərəf işidir vergiləri ödəmək,
Bizdə sərvət artırır, vergilərdən gizlənmək.

***

Artığıyla ödəyir onlar sizin zəhməti,
Bizdə həddən ziyadə, danlaq ilə töhməti.

***

Orda sabit idarə, ölkə nə yekəlikdə,
Bizdə xəlvət dərə çox, tülkülər də bəylikdə.

***

Onlar orduda belə yada salır İsanı,
Bizimkilər də dinə, qoyur hər cür yasanı.

***

Orda millət vəkili, millət üçün əlləşir,
Bizdə millət vəkili, millət ilə güləşir.

***

Orda məmur səhv etsə, nazir verir istefa,
Bizdə məmurun səhvi, verir təzə iştaha.

***

Orda-burda var ikən, bəs naqislik bir belə,
Gərəkdir ki, çalışıb, düzəldək innən belə.

## YAZI QAYDALARINA

Bəs deyirdin, hər söz yatmır şeirə,
Kim ağzına nə gəlirsə, deyir ə...!

***

Bir ömrün boy verən bu illərində,
Ayrı ləzzəti var yetmiş birin də!

***

Sizdən yetişən olmaz arzuların tamına,
Ayaq tutub yerisə dost arası təmənna.

***

Hansı namərd tapdasa bu müqəddəs torpağı,
Başı üstə ucalır Azərbaycan bayrağı!

***

İnsan yer üzündə əşrəf sayılar,
O da ölüm saçan tonqal qalayar.

***

Haqqı olmayan şəxsi qoysan adam yerinə,
Çıxıb sənin çiyninə saman tapır dərinə.

***

Nə xoş günün varmış, Vətən,
O da bizə yarmış, Vətən!

***

Hamımız bir aradayıq,
Şəhid kimi sıradayıq.

***

Necə başa salım sən tək axmağı,
Tarixi ibrəti görmürsən axı!

***

Yenə də peydadır bir sürü "qeyrət",
Fikri, düşüncəsi tamamən heyrət.

***

Hər cürə silahın səsi ucalır,
Deyəsən İsrafil surunu çalır.

***

Ayıla bilsəydi qohum, qardaşım,
Dünyada salamat olardı başım.

***

Hərənin ağzında varsa bir avaz,
Sülhə gəlməsələr yaşamaq olmaz.

# ÜÇ KƏLMƏLƏR

Çıxdıq adam içinə,
Mərdi dustaq elədik.
Dərdə müştaq elədik
***

Xalqı görə bilmədik,
Biz dördnala çapalı.
Gözlər oldu qapalı.
***

Çıxdın nazın dağına,
Sevgi qoydun adını.
Kimdi bilən dadını?
***

Bəzək vursan götürər,
Evə, ata, arvada.
Sonu dönər bərbada.
***

Biri səni öldürər,
Birin başqası minər.
Biri ayrısın sevər...
***

Başdan canın qurtaran,
Bayram edər şadyana.
Başın qoyub meydana...
***

Qazlar onunku idi,
Qaz uçdu, qarğa qondu.
Qarğalar da onundu...

***

Yaxşı kişinin olar,
Evi, atı, arvadı.
Arvad bizdə tərsadı...

***

Birinə mebel olar,
Meşələrdə palıdlar.
O birinə tabutlar...

***

Birinə milyon olar,
Sərvətin bol, nöyütün.
O birinə öyüdün...

***

Gördüm vətən hərracın,
Ortasına qoyulub.
Bölgə-bölgə oyulub...

***

Biri ərdən yarımaz,
Biri də arvadından...
Gəl çıxarma yadından,

***

Kasıb cırıq qaloşda,
Varlı pərqu balışda.
Vətən bizi bağışda...

***

Oğulların yarımcan
Birində baş ağrısı,
O birində sağrısı...

***

Sənin baş danışmanın,
Bizim dili bilməzin.
Yaman çoxdu mələzin...

***

Başın qoyub meydana,
Gördüm, vardı tərpədən.
İndi baxır qəbirdən...

***

Əl öyrənib kəsməyə,
Biri təndir çörəyin.
Biri xalqın gərəyin...

***

Bizlər görən işlərə,
Qəbirdən də tüpürər.
Əmi oğlu İskəndər...

***

Dedilər çox yaşadın,
Gözə girdi yaşımız.
Ay bəlalı başımız...

***

Uzundərə danışıb,
Yormayaq bu milləti.
Millət sevər sünnəti...

***

Arvad umur ərindən,
Əri başqa birindən.
Qeyrətin xoş yerindən...

***

Şərəf yükü ağırdı,
Hər çiyinə qonmadı.
Namərd oğul qanmadı...

***

Sizi başdan eləyər,
Sizi başa düşüncə.
Kimdə dardı düşüncə...

***

Gözəl dostu tanıyır,
Deyir, ondan söz elə.
Ürəyimdə əzələ...

***

Süfrəmizə bərəkət,
kimlər yedi artığı,
Olur yurdun ortağı...

***

Altmış beşdən çoxusun,
Ay Əzrail, di gəl al.
Belə deyir "evdəqal"...

***

Başqa yerdə ailə,
Düşür dövlət yadına.
Biz dönmüşük yadına.

***

Hesab-kitab dəftəri,
Qoyulanda qabağa.
İşə düşər qadağa...

***

Yenə sağ ol ay virus
Cəzalıdır dışarı.
Küçə, bayır, içəri...

***

Etmə, eləmə dedik,
Bizlər döndük zahidə.
Nə ehtiyac şahidə...

***

Bizlər yaman umarıq,
Doğmaların qoxusun.
Gəlib-getmir çoxusu...

***

Mən uyuram qanuna,
Məni evdə tutanım.
Ay yerinə utanım...

***

Bu qurumuş döşlərin
Mənə qarşı qan atdı.
Namərd oğlun qanatdı?!..

***

Haqqı tələb elədik,
Dedi uzun dillisən.
Sən də bizim ellisən?..

***

Oğul-uşaq adına,
Nənəm kündə yapardı.
Günü gəlib apardı...

***

Namərd atı kişnədi...
Mərdlər minə bilmədi,
At cövlana gəlmədi...

***

Şah qapını açanda,
Əldən ayaqdan olduq.
Əldə-ayaqda qaldıq...

***

Anam, namərd oğulu,
Kim demişdi doğaydın?
Kaş bələkdə boğaydın...

## AXŞAM GƏZİNTİLƏRİ

Bir deyil
Nə ümidin dirisi,
Nə gümanın irisi...

***

Ümid qarın doyurmaz,
Onla olar yaşamaq.
Yeni günə başlamaq...

***

Ümid bizə verəni,
Güman belə vermədi.
Kimsə barın görmədi...

***

Gümanın meyvəsindən,
Ümid daha şirindi.
Kökləri çox dərindi...

***

Ümid reallıq deyil,
Yaşamaqdır bonusu.
O həyatın tonusu...

***

İkisi də ilğımdı,
Güman gedər min yerə.
Ümid gedər hədərə...

***

Güman zənnin bacısı,
Hər ikisi yalançı.
Ömrümüzə talançı...

***

Ümid nəfəs kimidir,
Ən son o çıxar candan.
Fərqi budur gümandan...

***

Yenə ümid yaxşıdır,
Eləsə də yolundan.
Daim tutar qolundan...

***

Uyub zənnə, gümana,
Ümidləri tapdama.
Adam gülər adama...

***

Mən bu fərqə nə deyim,
Güman gedər min yerə.
Ümid ölər bir kərə...

***

Babamız da sığmadı,
Bu zənn ilə gümana.
Bəxtimizdə dumana...

***

Bizlər ümid atının,
Yalmanına yatanda.
Düşdük ömür atından...

***

Ümid ömür kimidir,
Bizlə gedər torpağa.
Bir qəbirdə yatmağa...

***

Yaxşı-yaxşı ümidin,
Yaxşı tutduq əlindən.
Qurtarmadı ölümdən...

***

Bizlər qısır imkanın,
Əsir qaldıq əlində.
İmkan ceyran belində...

***

Ömrümüzü "uzadan",
Ümid ömürdən qısa.
Bizdən əvvəl o susar...

***

Yol aldığın sevdada,
Halal, haram sey tanı.
Yaxın qoyma şeytanı...

***

Axtarırsa tapacaq,
Hamı biri-birini.
Çoxu bilmir yerini...

***

Yoxsa könül xoşluğu,
Nə münasibət olur?
Bu, münasib ət olur...

***

Çoxu məyus olacaq,
Bilinəndə yerimiz.
Qonşu olmaz qəbrimiz...

***

Şair olan deyilsən,
Nə sözləri çimizdir.
Nə qələmi əmizdir...

***

Bunun sirrin kim bilir,
Saldıq bu fikrə meyil:
"Dünya düzələn deyil"...

***

Küsmək yaxşı şey deyil,
Hamı umu-küsüdə.
Yaxşısı da pisi də...

***

Bizdə kitab, dəftərin,
Oxuyanı azalıb.
Kitab-dəftər sozalıb...

***

Asan gedilən deyil,
Haqqa gedən yolçuluq.
Yol dolu cocuq-çoluq...

***

Özün boyda heç nəsən,
Aydındır anlayana.
Gör nədir bu möv-la-na...

***

Tövbə çətin şey deyil,
Daim açıq qapısı.
Bağışlamaq yapısı...

***

Dünya qonaq evidir,
Hər gələnə, gedənə.
Xeyir-şərin güdənə...

***

Elm odur ki, dibinə
İşıq sala çırağı
Yayıldıqca sorağı...

***

İbrətini alacaq,
Doğru, düzgün məşq edən.
"Bəlkə"lərdən, "kəşkə"dən...

***

Dünyanın çox oğlu var,
Biri hamıya görkdür:
"Dünya beşdən böyükdür!"

***

Yola salıb nə qədər,
Neçə nəsil oğulu.
Bitməz dünya nağılı...

***

Adını münsüf qoyub,
Ekranlara adlamış.
Beş-on adam adlanmış...

***

Mübtədayla xəbərin,
Dəyişərək yerini.
Yazdın təzə şerini...

***

Bir də görürsən biri,
Gücü veribdir əngə.
Basır topa-tüfəngə...

***

Kimə ağıl paylayır,
Ərindən tez boşanan?
Deyir budur yaşanan...

Ailədən danışır,
Ailəsi olmayan.
Bir vüsaldan doymayan...

Bu dünyada tapılmır,
Axtardığın ədalət.
Nə halətdir bu halət?

***

Günü günə sataraq,
Çıxdıq ömür yuxarı.
Orda çıxdı paxırı...

***

Bir çoxunun taleyi,
Allahın umudunda.
Çox görən var onu da...

***

Bir çoxunda tapılmır,
Sən o vicdan dediyin.
O bir ucdan dediyin...

***

Çox gözlər var, doymadı,
Sərvət mənsəb olanda.
Çox boşluq var imanda.

***

Çoxu cumar sənətə...
Sənət qiymət alanda.
Qalanı çox, dalanda.

***

Canla-başla çalışmaq,
Hər sənətin şamili.
Bəxt də qiymət amili...

***

Ağıl dişi çıxandan,
Biz tanıdıq dünyanı.
Demə varmış o yanı...

***

Yaşamağa dəyərmi
Gözün olsa kölgəli.
Budur yaşam əngəli...

***

Qiymət verən bizik mi,
Hərənin öz naxşı var.
Həm pis var, həm yaxşı var...

***

Mənəm-mənəm deyənin,
Bəzən olmur mənliyi.
Budur ömrün tənliyi...

***

Gördün özün deyilsən,
Demək çatıb axırın.
Ömür gəlir, çıxarın...

***

Vaxtı ucuz tutaraq,
Biz boşuna xərclədik.
Adına ömür dedik...

***

Nələri yükləmədik,
Ömür adlı zənbilə.
Heyif, döndü zibilə...

***

Yönlü quşlar deyirlər,
Çikkildəyər yuvada.
Bizim eldə, obada...

***

Ömür payı müftədir,
Kimsə bilməz hesabın.
Sonra çəkər əzabın...

***

Bizdən əvvəl gedənlər,
Bizdən əvvəl haqdadır.
Çoxu hələ yoldadır...

***

Dünya məşqin ünvanı,
Hamı meydan sulayır.
Sonda başın bulayır...

***

Çoxdu qiymət verməyən,
Bu qurğuya, düzənə.
Halal-haram məzənnə...

***

Nakam demə heç kimə,
Düzdür belə söylənir.
Kamı verən biləndir...

# DÖRD KƏLMƏLƏR

## İNTİM HƏYATINI PAYLAŞANLARA

Utanmaq nə yaman çətinmiş qağa,
Hər adam min cürə oyundan çıxır.
Yorğanın altına, girsən yatağa,
Görürsən üzünə kamera baxır..!

***

Deyən vardı azad etsək torpağı,
Biz olarıq təcavüzün ortağı.
Daha gərək dillənməsin "qardaşım",
Yerindəysə gül ağzının "qapağı".

***

Bizdə bədduaya vardır qadağa,
Kül qoyduq səngərdə sizin papağa.
Həddini bilməyib nə sədd çəkirsən,
Səddi biz qoyuruq Ohanyan dığa!

***

Nənəmdə xəlvətə yoxdu qadağa,
Babam Haykanuşu saldı yatağa.
Bizlər yurdumuzdan itlər qovuruq,
"Anamın saçları dönməz tapdağa"!

***

Pendiri dəriylə, arvad əriylə,
Saxlamır tarixi etibariylə.
Yerli də, yersiz də olsa soruşaq,
Balam, bəs kişini kim saxlayacaq?!

***

Döyüşə gedənin hamsı qayıtmır,
Bunun can itkisi, qan itkisi var.
Kim candan keçəcək tanımaq olmur,
Ruhunda gizlənən bir türküsü var!

***

Gözəlin rəsmini paylaşan Bakir,
Bəs niyə bilməsin o dağ hardadır?
Hər nakam vüsalı bir hicran sökür,
Harda gözəl yatır, o dağ ordadır!..

***

Haqq yolundan dönər olsam mən kiməm,
Yolçuluğum tanrı deyən yolla, yar.
Dərdi verən tanrıdırsa nə dərdim,
Dərmanımı dərdə görə yollayar!

***

Bir də evlənəndə tərsa qız alma,
Əmindən ibrət al, bir dayına bax.
Məndən söyləməkdi, nigaran qalma,
Yurduna mələzlər sahib olacaq...

## ƏMOĞLU İSKƏNDƏRƏ

Ruhuna fatihə ay irəhmətlik,
Bilirəm, qaş-qabaq yeri süpürür.
Sən yenə bir köynək yaxınsan bizə,
İndi üzümüzə yadlar tüpürür.

***

Gəlin daha verməyək,
Hər fürsəti düşmənə.
Tutub atın cilovun,
Deməsin ki, "düş" mənə...

***

Mal ilə pul qatdı başı,
Bu möhnəti di gəl, daşı.
Uçdu divarımın daşı,
Kafərgilə dığırrandı.

***

Bizdə mərdlik, kişilik
Balam, yoxsa qurtarıb?!
Kirvə tutub qolumu,
Dəllək kəsib aparıb?!

***

Sözü demirəm ki, baxıb güləsən,
Ta dəli olmağa dəymir deyəsən.
Bax bunun xiffətin çəkirsən hərdən
Yoxdur xəbərimiz doğru xəbərdən.

***

Haqq yolu tutanı varsa şərləyən,
Bu sözü bir daha olsun dinləyən.
Ey Allah verəni almağa qalxan,
Onun da əlində qalacaq yaxan!

***

Nə deyim babalar deyən sözə mən,
Bu yolda meydanı verdim sözə mən.
Bir dəfə demişdi Əbülfəz axı,
Dilindən vəd umub oldu söz əmən.

***

Şerini oxusan bir dəyəri yox,
Şah sözün qədrini bilənləri yox.
Ay ana, yaman çox şair doğmusan,
Varsa tuman bağın, bir çoxunu boğ!

***

Dünya məndən sərvətini əsirgə,
Qızıl nədi, gümüş nədi, zər nədi.
Sənin bütün verdiyinin əvəzi,
O dərgahdan bizə gələn zərrədi!

***

Bəxtimə düşəni pəri sanıram,
Nazıyla oynamaq boyun, borcumdur.
Olur ki, sancaraq incik salıram,
Neynəyim, əqrəb də mənim bürcümdür.

***

Hikkəmizin güdazıyıq,
Ermənінin qudasıyıq.
Bir başıma, bir dizimə,
Qardaşımın qapazıyıq.

***

Bir ocaq çatılıb başımda  sanki,
Tüstüsü bu yandan, qoru o yandan.
Bu yurdu qoruyan az maaş alır,
Vəzifə sahibin o qoruyandan.

***

Gördüyüm bir çox iş var,
Sevgilim bəyənməyən.
Nə mən o, deyən oldum,
Nə də ki, o, mən deyən...

***

Hərənin ömür payı,
Bir ölçüdə, mizanda.
Onun da çıxar zayı,
Sən yolunu azanda...

***

Söhbət onda deyil ki,
Qızındıq istisinə...
Qardaşına dəstək ol,
Yağı gələr üstünə...

***

Ov etməyə yaxşıdır,
Deyirlər ki, bərələr.
Amma bizim ovdanda
Tülkü dolu dərələr...

## AĞDAM, KƏLBƏCƏR, LAÇIN...

Güc alıb oğullar şəhadətindən,
Son qoydun düşmənin mənfur oynuna.
Gözün aydın olsun, ey uca Vətən,
Bölgələr sırayla dönür qoynuna!

***

Dünyaya görk oldu zəfər nağılın,
Şəninə dastanlar yazılmalıdır.
Səndən uca kəlmə tanıyan oğlun,
İncimə ay Vətən, asılmalıdır!

***

Qövm içrə vardır çoxlu naxələf,
Yad qızları ana edib oğluna.
İndi olub millətimə müxalif,
Yurd paylayır baldızına, qaynına...

## YURDUN GİLEYİ...

Mən səni qoynuma ala bilmədim,
Qanadı üstünə gərib, ay oğul...
Qoynumda olandan xeyir görmədim,
Məni ayaq alta sərib, ay oğul...

***

Bu nə yoldu, nə gərdişdi,
Dərdi çəkən bu dərdişdi.
Neçə Vəli tanıyıram,
Hamsı da bir dərvişdi!

- Orxan Vəli
- Şaiq Vəli
- Vəli Xramçaylı
- Vəli Qurbanoğlu

## HAFİZ RÜSTƏMƏ

Ustad bir Hafizsən sözün mülkündə,
Sadəcə yanında Şirazi çatmır.
Rüstəm kəsəri var kəlmələrində,
Fəxri adlarının bir azı çatmır!

***

Qəribə məntiq var sənin dilində,
Umduğum vüsal da qadağan oldu.
Mən səni sevəndə cavan olmağım,
İndi də yetmişim qınağım oldu?!

***

Biz səni çıxardıq məclis başına,
Keçmişik əvvəlki çox günahından.
Sən çağır düşməni ocaq başına,
Yerinə utandım şəhid ruhundan.

***

Bu dünya anba-an gidiləşirsə,
İgidlər ölməyib mütiləşirsə,
Doğulan oğullar gədələşirsə,
Kimin sinəsinə dağ basmalıyıq,
Kimi ayağından biz asmalıyıq?!

***

Vallah bu kəlməni almazdım dilə,
Sənin övladınıq, sən doğmamızsan.
Bu qədər nadürüst hardandır belə,
Ay nənə, sən Allah bic doğmamısan?!

***

Hər partinin öz siyasi gücü var,
Arasında lap devi var, cücü var.
Halal azdır, amma çoxlu bici var,
Gəl düzəldək ən millisin, təzəsin
Bu siyasi arenanı bəzəsin.

***

Hiylə, kələk sarıb evi, eşiyi,
Hər başlı, başını şətin saxlasın.
İndi səhnələrin sığal pişiyi,
Adam axtarır ki, itin saxlasın!..

***

Yoxdu mübaliğə yazılarımda,
Sözün doğrusudur qələmdən çıxan,
Nə deyim, yetmiş il arzularımda,
Olmuşam dostların yoluna baxan.

## İZMİR ZƏLZƏLƏSİNƏ

Daim yanındayıq biz,
Bu dünya bilmiş olsun.
Başa gələn çəkilir,
İzmirə keçmiş olsun.

***

Bu qədər təvazö nə lazım bizə,
Çıxır doğru sözümüzün canı da...
Ayaq tutub yeriyəndə yalanlar,
Yoxdu həqiqətin bir hayanı da!

***

Bizdə sərvət oğrusu,
Bələnər şal, tirməyə.
Ancaq kitab oğrusu
Dərhal gedər "türməyə".

***

Əcnəbilər yurdların,
Gülşən edib sevinir.
Bizim cənnət ölkəyə,
Düşmən gəlib sevinir.

## XORUZ İLİNƏ

Sənə salam olsun ay Xoruzqulu,
On iki ildən bir gəlir quqqulu.
Hində haylar ilə vermə səs-səsə,
Hər yerdə quyruğun görünür nəsə...
Səndən xahişim var, tək bircə kəlmə,
Necə gəlirsən gəl, urusca gəlmə!

***

Qoyub gərdəyində Fatmanisəni,
Babam tamah saldı yad işvəsinə.
Qınayıb məsləhət verən kimsəni,
Yol açdı övladlar didişməsinə...

***

Yurdumun sakini olar qarğalar,
Sərhəddi üç yüz il olarsa səbrin.
Kimə ağıl verir kafər dığalar,
Düşmənin bu günlər qazmalı qəbrin!

***

Təkədən pendiri tutmağa inan,
Çobanın istəyi şəksiz olacaq.
Ananın südüylə adam olmayan,
İnəyin südüylə öküz olacaq!...

***

Üzün qara olsun ay müharibə,
Gör neçə bayramı qara gətirdin...
Biz vətən uğrunda qatıldıq hərbə,
Onu da bu "sülhə" çarə gətirdin.
Üzün qara olsun, ay müharibə!..

## SALATIN, NÖVRƏSTƏ...

Bu torpaq, bu vətən uğruna yandın,
Budur özəlliyi bax, bu işinin.
Bunu da xatırla, ey gözəl Qadın,
"Yaylığın" başına bir çox "kişinin"!

## ONLAYN TƏLİM

Qıldıqca təbəssüm bizə virusi-müstəbid,
Oldu peyda yeni cür, dərsi-üsuli-cədid.
Unudub məktəb yolunu, uz tutduq ekrana,
Oldun "mələbə" övlad, məktəb yolunu tərgit!

***

Hələ ki, düşmənin başı çiynində
Hələ ki, bu başın ağrı şəkəcək.
Birisi şəhidin qızın söyəndə,
Biri qazimizə qəddar deyəcək...

***

Yenə Keçəl Həmzə olubdu peyda,
Onun da hədəfi olur Nigarlar.
Bu vətən nə hayda, bunlar nə hayda,
Bu qədər nanəcib, kor oğul olar?!

***

Sənə başqa gözlə baxanda biri,
Qoynunda çoxalır nadan, sərsəri.
Nə sən Vətən oldun doğma oğluna,
Nə də biz bənzədik mamırlığına.
İtə, qurda sinən bir yol, yolağa,
Sərvətin onlara dönüb yalağa...

***

Ülvi duyğularla sən gəl oynama,
Sənin ki, istəyin başqa şey deyil.
Ürəyin nə deyir istədin, amma,
Yaxşı bəs, ürəyim gərəyin deyil?!

***

Yenə də yaxanı çəkib qırağa,
Yenə də səbrimi çəkdin sınağa.
Gəl mənim səbrimdə oynatma atı,
Sənin oynaq atın altımda yatır.

***

Yalan yaxşı yeriyir bizim bu məmləkətdə,
Vəzifə, səlahiyyət itə, qurda qismətdə.
Bizlər buna susarıq, millət hələ yatıbdır
Elə bil ziyalısı cəhalətə batıbdır.
Millətin bu dərdinə məmur etməz etina,
Yaza bilmədiklərim nə yaraşır zatına!

***

Başımı kəsirlər – münaqişədir,
Dişimi qıcasam təxribatdımı?
Buna rəvac verən üç fahişədir,
Bu yeni düzənmi, tərtibatdımı?

***

Səlibin yürüşü çoxdan başlayıb,
Zəif nöqtələrdə boy verir hərdən.
Haqq sözü deyəni dərhal suçlayıb,
Gəlir başdan olur başın tərpədən.

***

Biri tutur səni topa, tüfəngə,
Dillənsən başına bombalar yağar.
Üz tutduq məsləhət üçün firəngə,
Burda “insan haqqı”, “qanunları” var...

***

Başını qaşıma, kəsilsə belə,
Ayrı cür anlayar bu Sem dayılar.
Kəsdiyi başlardan qan dönər selə,
Bu sivil dünyanın öz “qanunu” var.

***

Dovşana qaç deyir tazıya da tut,
Doğrudur bu misal bizim dildədir.
Bu siçan ya pişik oyunun unut
Güllənin cavabı ancaq güllədir.

***

Heç kəs qınamasın bizləri, qardaş,
Yoxdu bu dünyada bizə analoq.
Çirkaba batırdıq cənnət Vətəni,
Deyirəm, təzədən bəlkə doğulaq?

***

Vətən, sənin qoynundakı oğulun
Qeyrətinin üstündə bir ləkə var.
Ögeylərin kündəsidir ayağın,
Doğmalarda gümanlar var, bəlkə var...

***

Alınmayan qisas qalıb boynumda,
Biz yumuruq namusun bu ləkəsin.
Vətən əsir, tərsaların oynunda,
Dinləyitik binamusun yekəsin...

***

Cəm halında deyirəm, heç kəs məndən küsməsin,
Gəlin daha qoymayaq, kimsə əmcək kəsməsin.
Anasının əmcəyin, boy verdikcə kəsənlər,
Bu eldən, bu obadan çoxalacaq küsənlər...

## MÜQAYİSƏLİ FRAZEOLOJİ LÜĞƏT

Çox bahadır bizdə ana söyüşü,
Başınıza keçirərlər çuvalı!
O tayfada iki sözdən biridir,
Anasında intim yerin sığalı...

***

Mən bu qədər heç bədgüman deyildim,
Bu fikir ağlıma haradan sızdı?
Heç vaxt qınamıram dostu, tanışı,
Onsuz da bilirəm, sadiqi azdı...

***

Sizlər xəbər alsanız bu vilanın əhvalın,
Mən tapmışam cavabın neçə türlü sualın:
Haqqı tələb edənin qapatdıqca ağzını,
Məmləkətin boy verir çox harını, azğını!

***

Xiyar niyə əyri bitir deyirdin –
Görmədiyi bir qəzası qalmadı.
Elə geyir qız-gəlini elimin,
Görünməyən bir əzası qalmadı...!?

## YEKƏ DOSTLARIMIZA

Əl uzadıb torpağıma, daşıma,
Qatar-qatar silahları daşıma.
Vətən uğru nə gələrsə başıma,
Çəkilər...

***

Məramınız anlaşandı, qananız,
Düşmən mövqe tutur hər bir anınız.
Çox güvənmə, müqəddəsdir ananız,
S......!

## BABAMIN VƏSİYYƏTİ (ŞAİRLƏR HAQQINDA)

Babam haqlı imiş örnəklərində
Ay oğul, yerimə bu yoldan deyir.
Qəbri bilinməyən şairlərin də,
Taleyi bizləri ayıldan deyil...

***

Bir çoxların tanımaqçün ay qağa,
Keçmişini biraz çəkdim sınağa.
Bizm kimi sıravidir, nə deyim,
Arvadların veribdilər qabağa...

***

Tükəzban boşaltdı tuman bağını,
Sürüşdü belindən "on iki taxta",
Azadlıq istəyən nəvə yığını,
Beş-on "mini" tikib əyninə taxdı.

## ÇÖRƏK

Bizə sənin ətrin bəs eləyibdir,
Eşitdim qiymətlər səs eləyibdir.
Öpüb alnımıza sürtərik, yəni,
A çörək, bəlkə heç yeməyək səni?!

## ƏLİ BƏY AZƏRİYƏ

Beş il tanıdığım bir dost misalı,
İllər silə bilməz dost yaddaşından.
Sənin əlli beşin daha sanballı,
Bir xalq yazarının səksən yaşından!

## ADAŞIM ƏBÜLFƏZƏ

Ayrılıq da ömürdür,
Çarəsini gəzərdik...
Nə bilim ki, bir zaman
Qəbrin üstün bəzərdik...?!

***

Hərə bir cür tanıyır
Dostların cərgəsini.
Təmənnaya yükləyir,
Onların kölgəsini.

***

Yenə quş dilinə başladı şair,
Bizdə Süleymana bir qohumluq var.
Şairlər basıbdır dərəni, düzü,
Bizim tərəflərdə bir toxumluq var!

## İSKƏNDƏRƏ

Elə xisləti var qoca millətin,
Bəlkə də dünyanın ən iyrəncidir.
Bizi tərk etməyən bu ətalətin,
Çarəsi davamlı tüpürcəyindir!

## İKİ ÜZLÜ ÜÇBUCAQ

Bir üçbucaq qurubdular, türk demişkən çox harika,
Dərdimizə çarə tapsın, urus, firəng, Amerika.
Bu kələfi dolaşdırıb, düyün salan hər üçüdür,
İstər birdə dolaşdırsın urus, firəng, Amerika...

***

Çaqqal hökmü qurd durana qədərdi,
Qurd duranda boğazlayar çaqqalı.
Bütün cəhdin belə getsə hədərdi,
Bığ cəhənnəm, itirərsən saqqalı!

## YAZI

Yazıb ey-vah, kasıb, bəxti yazan qarə yazıb,
Hər şey sənə müxalif, bunu dübarə yazıb:
Doğru ki, çox şeyi çox yazıb zilliyə, əmma,
Qeyrət Zillidə misqal, sənə fəvvarə yazıb.

Zilli Sultan - ədəbi personajdır.

## OLUR

Qadın libas geysə ərkan ilə, qadın olur,
Ədəbi, ərkanı bilməyən qadın, yadın olur.
"Üzündə göz izi var, sənə kim baxdı yarım",
Deyən babam da bilir ki, ismət yadın olur...
***
Belini qatladıq neçə illərin,
Ömür başa çatan bir ərəfə, gəl!
Bilirəm, nəvələr hər şeydən şirin,
Arabir imkan et, bu tərəfə gəl.

## FİKRƏT QOCAYA

"Dərdin çoxdur, çək azalsın" deyirsən,
Dərd ayırmaz nə gədanı, nə xanı.
Bir çuxadır, hər bir yaşda geyirsən,
Düymə-düymə bağlasan da yaxanı.

## BAKI METROSUNA

Yer altında bir mənzil,
"Xalqlar dostluğu"dursa,
Adın nə qoyaq bunun,
Yer üstündə bu xalqlar
Bir-birini qırırsa?

## SULTAN BƏYİN AKSİOMASI

Yaramırsan dost divarı hörməyə,
Yurd sinəsi neçə səngər qazılıb.
Qulağının gün görməyən yeri var,
O da bizim bəxtimizə yazılıb.

## QONŞULARA

Boşuna yormuşuq gözəl başları,
Bir xeyir görmədik düşüncəmizdən.
Namərd yolumuza düzər daşları,
Güdər faydasını işgəncəmizdən.

## ŞÜKÜR

Hər şey boldu bizlərdə,
Şükür, kəsadlıq deyil.
Bircə müşkül budur ki,
Heç nə kasıblıq deyil...

***

Danabaş deyilmi bizim bu oğlan,
Salır ortalığa bu çaxnaşmanı?!
Sabirdə, Cəlildə qüsur arayan,
Tapar anasına bir çox aşnanı!...

## DÜNYA NƏNƏMİZƏ

Sən gərək əzəldən qısır qalaydın,
Xeyirlə şəri də sən qarşı qoydun.
Yaxşı kişiləri qıydın aborta,
Bu qədər namərdi, oğraşı doğdun?!

***

Bu gün bizim qarşımıza çıxanlar
Babaların tökdüyüdür ha, bilin.
Nə yaxşı ki, qovğasına bənzəmir,
Bu qovğamız Qabil ilə Habilin.

## İŞDİR, ŞAYƏT...

Bir-birinə söz atırıq,
Ayı qandı, bu qanmadı.
Görən kimi aldadırıq,
Birdən, ayı da qanmadı?!

## NİKOLA

Bütün rəzilliklər sənin adına,
Tarixdən şərəflə gəlir adımız.
Sən nöqtə qoyursan cümlə ardına,
Boynundan yoğundur bizim nidamız!

## VƏTƏNİMƏ

Dünyaya görk oldu zəfər nağılın,
Şəninə dastanlar yazılmalıdır.
Səndən uca kəlmə tanıyan oğlun,
İncimə, ay Vətən, asılmalıdır!

## TARİXİN ƏSKİYİ

Sanmayın ki, çözülmədi,
Haqq nazildi, üzülmədi.
Dünyada çox şey düzəlir
Bu dığalar düzəlmədi...

***

Allah ömür versin, illəri sayaq,
Bac alaq illərin xoş gəlişindən.
Oxucum, sədanı, səsini duyaq,
Bu da bir ərməğan dost yetmişindən.

***

Saç ağarıb bunun dərdin çəkmə sən,
Ağrıdır, acıdır, cəfadır bilsən.
Neynəyək, şairi bunlar yaşadır,
Şerə büküb vərəqlərə tökmüsən.

***

Biz Vətənin daşı ola bilmədik,
Düşmən gələn tərəflərə atmağa.
Elin dərdin eloğluyla bölmədik,
Öyrənmişik xumarlanıb yatmağa.

***

Bizim kəndimizin axsağı hürkdü,
Mən ona sevgimi kəkələyəndə.
Birbaşa "yox" deyə bilmədi ancaq,
Bəhanə burnumun yekəliyində.

***

Biz Əsliyə uyandan,
Elin yükü əyilmiş.
Ay Eloğlu, ayıldın,
Əsli bizlik deyilmiş...

***

Kimlər nələr söylədi,
Kimlər nələr eşitdi.
Xalxın düşməni birdi,
Bizdə çeşid-çeşiddi...

***

Bir evində oğulun,
Bir evində qızındı.
Odun isitməz bizi,
Yadlar gəlib qızındı...

***

Rəis elə qovdu ki,
Nikol adlı bərbadı.
Qızları qoyub qaçdı,
Tapa bilmir arvadı...

***

Rəis qovduğu itdən,
Xəbər gəlir TVİT-dən.
Bir faydası olmadı,
Otuz illik söhbətdən...

***

Qanun yaman bənzəyir,
Tısbağanın qınına.
Onu qəbul edənlər,
Uyğun bilmir sanına.

***

Girib qanun donuna,
Oxu yalan moizə.
Ayaq tutub yerisə,
Qənim olacaq sizə...

## GİRDİM

Haram dayaz göl idi,
Boy vermədi, gizlədi.
Bircə qaşıq halalım,
Gəl içimdə üz dedi.

***

Armenin atəşkəsi,
Moizədir hər dəfə.
Silahı qoysaq yerə,
Biz dönərik hədəfə...

***

Bizə yaxın elmidir,
Biz hesabdan anlarıq.
Işğal olmuş yurdların,
İllərini sayarıq...

***

Qaragen əldə silah,
Edir cəbhəyə kömək.
Bizdə Allaha şükür,
Çox salavat çevirmək...

***

Tanrı çalışanı sevər, əzizlər,
İnkişaf, hərəkət deməkdir axı.
Ötsün başın üstən qoy neçə illər,
Nə qədər bol olsa tanrı sınağı.

***

Sən ey Vətən oğlu, yolundan qalma,
Dara düşənlərin pənahı sənsən.
Bir Vətən övladı çarəsiz olmaz,
Hamının köməyi, yardımı sənsən.

## POLİS DOSTLARA

Yoxdu iş vaxtının gecə-gündüzü,
İş yeri sizlərə ikinci evdi.
Heç kəsin vəkili deyiləm, düzü,
Elə bunun üçün xalq sizi sevdi.

***

Nanəcib, nadanın gözündə tirsən,
Cılıza uymayan böyük kişidir.
Yurdda daha böyük işlər bitir sən,
Ən böyük siyasət, sənin işindir!

## BEŞ İL

Adam var beş ilə bir işi görmür,
Adam var beş ildə əyildi, çökdü.
Beş il bəzisinə igidin ömrü
Bəzi adamlara ömürlük yükdü.

***

El üçün xilasa işləsə ağlın,
Tutaraq qolundan onu qurtarır.
Məzlum harayına yetişən yolun,
Əcri var, tanrının hesabındadır.

***

Gəlişin hər yerdə güllər bitirdi,
Dönür gülüstana bu ana Vətən.
Sən Allah payısan, özü yetirdi,
Dualar qəbula keçir deyəsən.

***

Məzluma yardıma qoşan zaman sən,
Qürurdan sinədə uçurdu ürək.
Oldun əməlinlə, işlərinlə sən,
Elinə, obana, dünyaya gərək.

***

Dünya imperiya zamanı deyil,
Hamı üz tutmalı sülhə, barışa.
Bu dünya yüz ilin gümanı deyil,
Gör neçə cahangir ürcah qarğışa.

# RASMUS PALUDAD RÜBAİSİ

Yenə də nəmrudlar olubdur peyda,
"Quran"ı yandırmaq onlarda sevda.
Başını qaldırıb baxmırlar göyə,
Görsünlər əbabil ulduzlar sayda.

***

Hərə daş üstünə bir daşı qoyar,
Tikilən binalar ucalar göyə.
Vətəndə şərəfli bir adın qalar,
Bu yurdda belə bir oğul var deyə!

***

Tanrı şərəf yükün hamıya verməz,
Sayıb, seçər, verər bəndələrinə
Bir xətər, bir ziyan əlindən gəlməz,
Tanrı da güvənir sevdiklərinə.

***

Anyadan, Sonyadan, "matuşka"lardan,
Doğulan, ayaqla başımdan basır.
Tarixin tozu var, papağımızdan,
Dizəcən tökülüb, başımdan aşır.

***

Yığmısan atamın evinə niyə,
Şərəfdən, namusdan xəbərsizləri.
Ay ana, bu nalən ucalsın göyə,
Azalır sinəndə oğul izləri...

***

Ey vətən, yol üstü hürən itlərə,
Bir az təpinərlər, yoldan çəkilsin.
Sən çörək vermisən yol ötənlərə,
Ocağın başına niyə təpilsin?!

***

Dünya tərəqqiyə yol alan zaman,
Geri qayıtmağın köçün tutmuşuq.
“Demorqat”, bizlərə müxalif olan,
Birini asmışıq, beşin tutmuşuq.

***

Bir itə bir tikə çörək verirsən,
Qapında quyruğun bular bir ömür.
Qardaşım, bu qədər heyvan sevərsən,
Heyvan, varlığımı axı sümürür!..

## ÜZEYİRƏ

Eşitdim dünyaya gəldi anamız,
Onunla dəyişər yaşam dünyamız.
Oğul, gözün aydın, göz üstə saxla
Bizlərin ətrini sən ondan qoxla.

***

Üç gündən, beş gündən bir arzulardı,
Babalar görməyə sevimli yarı.
Üç aylar, beş aylar könlüm qubardı,
Nəvələr bir az tez böyüyə barı!

***

Sapı oğlumuzun başına dəyər,
Vurmayın şallağı tərsa başına.
Qeyrətdən danışıb döşünə döyər,
Nəsihət dediyin gəlməz xoşuna.

***

Tolerant olmuşuq, sivil olmuşuq,
Yumaz bu babalı Arazım, Kürüm.
İskəndər, biz səni yada salmışıq:
- Sizin üzünüzə gəlim tüpürüm!?

***

Əxlaq pozğununa Vətən qapısın,
Çox geniş açmışıq, bağlamaq olmur.
Ay üzlü qonağım, qıçın qırılsın,
Keçir baş tərəfə, saxlamaq olmur.

***

Çox da çətin şey deyil bu səsvermə dünyada,
Əsas seçki başlayır, bülleteni sayanda.
Hamı olur şahidi bir danılmaz gerçəyin,
Səsi sayanlar kəsir anasının əmcəyin.

***

İt hürəndə ağzına,
Bizlər atdıq Vətəni.
Gündən-günə qısalır,
Bu Vətənin çətəni...

***

Vətən sağmal inəkdir,
Oğulların birinə.
Bir quruca təzəkdir,
Bəs niyə digərinə?!

***

Mərd kişidən doğduğun,
Oğlu, oğul bilməsən.
Nə mən oğul deyiləm,
Nə sən Vətən deyilsən.

***

Hər şey satılır deyən,
Filosofu qınadım.
Çıxdım bazar tininə,
Sındı yersiz inadım.

***

Namus paltar soyunsa,
Hər yetən əl uzadar.
Cinsi naməlum olsa,
Namus, ölü əzadır.

***

O vaxt keşiş vermədi,
Əslini Xan Kərəmə.
İndi əslilər özü,
Gəlib dolur hərəmə.

***

Bizdən xeyli fəaldır,
Tərsa dinin xocası.
Bizdə hələ duadır,
Kamil iman olması.

***

Bu "kişilər ağlamaz",
Hardan gəldi dilinə.
Kişilər gün ağlayar,
Obasına, elinə.

***

Çıxıb bəxtin taxtına,
Ağzı Allah yolunda.
Bu milləti kiçildən,
Nələr yoxdu ağlında?!

***

Yuxun şirin olmasın,
Mənim yatan millətim.
Mətləbinə yuxuda
Gedib çatan millətim.

***

Şərəf ağır yükdü ha,
Hər çiyin etməz tabı.
Sən adında oğulun,
Bağlı qalsın kitabı.

***

Qeyrət bir kor bağırsaq,
Bir çoxunda kəsilib.
Yerdə biqeyrət qalıb,
Qoca millət əzilib.

***

Çoxu alim adında,
Siyasidir, birləşib.
Əvvəl ağlı var idi,
Lap sonralar gicləşib.

***

Yoxdu bizə dünyada,
Bir bərabər, analoq.
Nə oğullar oğuldur,
Nə analar analıq.

***

Bir ömrün boy verən bu illərində,
Ayrı ləzzəti var yetmiş birin də!
Bəzən xatırlarıq biz uşaqlığı,
Ancaq lazım olan canın sağlığı!

***

Təkcə kafərliyi xoşdu kafərin,
Olmaz o, bizlərin bir müsafiri.
Qələm oynadıram mən elə-belə,
Yazıb-yaratmaq da sənin şakərin!

## DOSTLARIMA

Nasazlığım var idi, dedim nədir bu belə,
Qorxdular boy veribdi, bəlkə mənim şəkərim.
Gedib həkim yanına, qanı verdi təhlilə,
Məlum oldu başqadır, demə mənim şakərim!

s.a.
O da can alan deyil, yaxşısın Allah bilir,
Şükür, hələ sağlığım mənim üzümə gülür.

***

Fərqinə varmısan irfani şerin,
Adı qoşa gəlir meyin, məsçidin.
Məsçidlə bu meyin fərqinə bir bax,
Biri zahidindir, biri arifin!

## DOĞUM GÜNÜ TƏBRİKİ

Bu doğum günündə təbrik üçün mən,
Yazdım bu sözləri səmimi, qəlbdən:
Sizi gözləyən göz heç vaxt yorulmur,
Hər adam Dostların böyüyü olmur!

Saya salmır el dəbinin ülgüsün,
Unudubdur paltarının ölçüsün.
Deyən yoxmu, qızım ətin tökülsün,
İt ağzından çıxıb palın, paltarın,
Gözə girir niyə budun, baldırın?!

***

O vaxtı gümanlar azmadı nəsə,
Harsınlar babamı saldı həvəsə.
Qatlayıb qoymadın dizinin altda,
Gorun çatlayırmı, ay Fatmanisə?!

***

Çox şey tənasübə tərs gəlir nəsə,
Daima düzlüyə könül təşnədir.
Uzaqdan dağ bilib güvəndiklərim,
Yaxına gələndə gördüm heç nədir...

***

Sən eşqi ötəri, sevdası duman,
Müdriklər var deyib bu qədər güman:
"Eşqiniz – həvəsin bitənə qədər,
Sevdanız – nəfəsin bitənə qədər"...

***

Sözün dəryasına bir qab salladıq,
Beş-on damla doldu söz səhənginə.
Onu da hamıya yazıb yolladıq,
Qüsur axtarmaqla söz nəhənginə...

***

Ədalət qoynunda nə vaxt olacaq,
Neçəsi ah çəkər, ay gidi dünya.
Birinin qisməti özündən qabaq,
Birinin qisməti ləngidi, dünya...

***

Sözü qəribliyə salma sevgilim,
Bir sözdü, demişəm, deməmiş olum.
Dilini, dodağı tamarzı vaxtı,
Mən yeyim demişəm, yeməmiş olum.

***

Özümdən gedərəm, getmə gözümdən,
Sən mənim ömrümün bir naxışısan.
Başqası doymayır mənim sözümdən,
Sevdiyim deyir ki, çox danışırsan...

***

Azalıbdı sevənlərin qoxusu,
İnşallah da, qayıdacaq gedənlər.
Ağır olur həsrət günün yuxusu,
Yaxşı bilir doğmanı tərk edənlər.

***

Dədə-baba dəbdə olandı eşşək,
Çox çəkirik onun adın, bu bişəkk!
Gündəmə də yaman girib bu heyvan,
Bütün dilə rahat yatır, çox qəşəng!

## DÜNYA QADINLARINA

Ay nəvəm, ay qızım, ay bacım, Ana,
Sizin varlığınız bizə bayramdır.
Tanrı xoş günləri yazsın ünvana,
Pis günün mənim də könül yaramdır!

***

Yaz yağışı kimidir,
Ər-arvadın savaşı.
Sonda ya Günəş çıxır,
Ya da onlar barışır!

***

Vətən sənin torpağının, daşının,
Hər kirinə, hər pasına qurbanam.
Şərti kəsib, şumda sözü verənin,
Xırmandakı yabasına qurbanam.

***

Hər işi nizamla görərsə oğul,
Tanrı köməyini əsirgəyərmi?
Bircə yurdumuzdan çəkilsin yağı
Sülhün arzuları hələ göyərmir...

***

Ehtiyat igidin yaraşığıdır,
İllah da üstünə yağılar gələ.
Bu odlar oğlunun başı ucadır,
Hər selin ağzını verəcək yelə.

***

Sən öndə gedənsən ay Vətən oğlu,
Dəyər ayağına çox namərd daşlar.
Çoxları bilərlər kim olduğunu,
Aciz gözlərində çatılar qaşlar.

***

Hamı nümunəvi işləsə nə var,
Bu Vətən cənnətə dönməzmi söylə?
Bilirəm, qəlbində çoxdu arzular,
Daim çalışağın təmkinlə, səylə.

***

Hər oğul yurdunu sevsə nə vardı,
Heç düşmən ayağı dəyərdi bura?
Vətən güclənərdi, hey ucalardı,
Hərə bir əməli başa çatdıra.

***

Təmənna umulan hər söhbətlərin,
Son ucu boynuma minnət olubdur.
Kirvə xanımlardan törəmələrin,
Qeyrət damarına sünnət olubdur.

***

Kəsilmiş, cızılmış bir barmağıma,
Bir damcı sidiyi var əsirgəyən.
Həyatda büdrəyib yıxılmağına,
Həmişə kənarda var gülümsəyən...

***

Elə söz var deməyə, qoymur xəcalət təri,
Desəm el içrə mənə, deyəcəklər sərsəri.
Dərdimizi bilməyə hamılıqla pərgarıq,
Dərdi bilən kimsədə dərman əlamətləri.

***

Tarixin babalın yığıb boynuna,
Bir enə verdiniz, bir az da boya.
Bəlkə şeyximizin salaq yadına,
Nəsrullah sizi də heç oyatmaya?!

***

Qadınlar yaşını gizlədər axı,
Sən də bayraq edib tutdun əlində.
Bir görüş payımı unudammıram,
Dost izi qalıbmı əlliliyində?!

***

Dəli dağın dəliliyi tutaydı,
Çınqılları üstümüzə ataydı.
Kərəm ahı bizləri də tutaydı,
Kafər qızı övrət deyib alanda,
Simin sınsın "Koroğlu"nu çalanda!

## KORONA MASKASI

Babamı nə qədər saldın çətinə,
Peşə eləmişdi seyri-başmağı.
Ay nənə, qurbanam ürf-adətinə,
İndi dünya taxır Sizin yaşmağı!

***

Ey qoca tarixin bir gərəksizi,
Süpürüb dənizə tökərik sizi.
Ancaq heyif olar o süpürgəyə,
Cəmdəyin onu da murdarlar deyə.

***

Toxumun bic toxum, mayan da haram,
Səni ayrı cürə mən tanımıram.
Sən özün seçmisən belə həyatı,
Buyur, təyin elə müqəddəratı.

***

Bizim nəyimizə oğul deyirsən,
Ey Vətən, heç nəyin ola bilmədik.
Zülüm, əsarətdə sən inləyirsən,
Bizlər səngərlərə dola bilmədik...

***

Düşmən gülləsinin şərəf yükü var,
Adını ən uca zirvəyə yazar.
Gəlir qövmümüzdən güllə baranlar,
Sanmasın  oğullar yolundan azar.

***

Çox deyərdik dağlar dağımdır mənim,
Heç demirik, dünya yağımdır mənim.
İşə bax ki, "qəm oylağımdır mənim",
Kərəm yanıb hey ağladır bizləri,
Yolda qalıb o dağların gözləri...

***

Heyif otuz beşə, otuz səkkizə,
Sayını itirdim sənsiz illərin.
Bir çatı parçası sataşır gözə,
Danası yad çıxdı boz inəklərin.

***

Nə oğuldur böytmüsən, anacan,
Yiyə durmur birçəyinə, saçına.
Bütöv ömrü girov qoyub sonacan,
Süfrəmizin ortasına s.....!

***

Ruhumuz göylərdə, cismimiz burda,
Bir də pişvazlara çıxa bilmərik.
Yığmayın üstümə daşı, torpağı,
Onsuz da heç yana qaça bilmərik.

# RAMİZ İSMAYILIN BUNA YANAŞMASI:

Bir nadana ərə getdi bir gözəl,
Görən dedi: "daş başına bu qızın".
Ömrü bitdi-yaralı bir şair də,
Şeir yazdı baş daşına bu qızın...

***

Sözü ucuz tutan ey, ağlına əndazə gəlir,
Yoxsa hər nə istəsən, ağlına yazanda gəlir?
Ətrafa zay səpirik biz, açanda söz boğçasın,
Yaxşı süpürsək onu, yaxşı xəkandazə gəlir!

***

Bu yurda sevgiylə bir can qurbanı,
Şəhid övladının töhfəsi kimi.
Milləti "düşünən" dil pəhlivanı,
Olmur qonşumuzun qəhbəsi kimi...

***

Bəxt gülüb üzünə, taxta çıxmısan,
Sənsən sorumlumuz Vətən boyunda.
Doymadın səbirdən danışmağından,
Bəs buna bir nöqtə gəlin, qoyun da!

***

Aşikar boy verib milli siniflər,
Gözün qabağında təbəqələşmə.
Artıb, çoxalıbdı bu qıt nəsiblər,
Atkeçməz işindən di gəl də keçmə?!

***

Çiçək açır gülzarımın qanqalı,
Babalarım o vaxt əkib dibçəyə.
Yaman vurub qolumuza qandalı,
Haykanuşu yıxan zaman döşəyə.

***

O vaxtı əkilən naqis toxumlar,
İndi çiçəkləyir, indi bar verir.
Dilləri, adları bizə qohumlar,
Mən də deyirdim ki, haradan gəlir.

***

Dərdimin boynundan zınqırov asdım,
Kimsə eşitmədi, kardı qulağı.
Yurdum kədərlidir, obamsa yasda,
Olub baş ağrısı bir cüvəllağı...

***

Bığını tumarla, təsbehi çevir,
Yenə də Allaha pənahı söylə.
Bizə göz dağıdır ucalan qəbir,
Yükləmə boynuma günahı belə...

***

Kim ki, böyüyünə atır daş, kəsək,
Yaxşıdır heç ona cavab verməsək.
Niyə keçmişinə atırsan güllə,
Sabah top, tüfənglər gələcək dilə.

***

Balam, bunlar niyə belə qarışır,
Doğrunu dəli də söyləmir daha.
İndi ağıllılar yalan danışır,
Bir sərhəd qalmayıb nəfsə, tamaha!

***

Beli bükülmüşdü Tükəz nənəmin,
On iki taxtanın ağırlığından.
İsməti nə qədər gizləsən azdı,
Naməhrəm gözlərin xumarlığından...

***

Vaxt var idi, söz ceyranın belində,
Yerə düşüb, qaldı namərd əlində.
Söz bazarı şor bazara dönübdü,
Yerdən duran yapışıbdı qələmdən.

***

Çıxar yağlı çörəyin
Ayrı şey nə gərəyin?
Yox qorxusu, hürküsü,
Yol... namərdin körpüsü...

***

Çətin bölünən şeydir,
Cüt eşşəyin arpası.
Hələ də bölə bilmir,
Bizim kəndin hampası.

***

İmkanı bol Vətəndə,
Çörək yoxsa təknəndə.
Nə mən öz yerimdəyəm,
Nə də sən öz yerində.

***

İçimizdə boy verir,
Təhlükəli bir fəsad.
Yaman çoxalıb, qardaş
Şərəf yükündən kəsad...

***

Tənqid ölüm deyil ki,
Olmasın bir çarəsi
Yazan, olar bilməsin,
Onu deyər qaresi.

***

Düşüb millət bəxtinə,
Tamahkar məmur daşı.
Azı adi quldurdur,
Çoxuysa quldurbaşı...

## MODERNİST QARDAŞIMA

Madam ki, tanrıdan gəlibdir buta,
Lazımdır sərraflar xatirin tuta.
Sözlər uydururuq əndirabadi,
Qoşmanı qoymuşuq "avtopilota"...

***

Ədalətli qərardır,
Hər ölümün vaxtı var.
Girdi mənim qoluma,
Baxdı hələ vaxta var...

***

Bizə nifrətiniz vardır qundaqdan,
Batır şalvarınız adımız gəlcək.
Bir leşi qalmasın bizim torpaqda,
Dirisi onsuz da qaçıb gedəcək.

# ELMANIN MƏNTİQİ

“İstilaçı qəsbkar,
Tutub neçə faizi.
Yurdu geri istəsək,
Qəsbkar olluq düzü”.

***

Bu məntiqə uyubdur,
Mənim millət vəkilim.
Dedim bəlkə üç yüz il
Bir qırağa çəkilim?!...

***

Gəlsin sənin yerinə,
Atamızın oğulu.
Versin tamam fatihə,
Qurtarsın bu nağılı!

***

Çoxunun ağzına qıfılbənd olub,
Bir tikə çörəyin namərd kölgəsi.
Müqəddəs dəyərdən əsər qalmayıb,
Ta yoxdur bunun da güman, bəlkəsi!

***

Ətəyində qılmaq üçün namazı,
Bir böyüyə, bir dağ bilib üz tutdum.
Çirkab dolu ruhu varmış ən azı,
Bir namazı qılmağı da unutdum.

***

Bəyzadə, xanzadə, şah olsan belə,
Söz doğru anlamda dönsün əmələ.
Uzun geyim cəhənnəmdən nişanə,
Topuqdan aşağı haramdır belə!

***

Niyə öyrənməyə həvəsin yoxdu,
Həyat məktəbində çox partalar var.
Doğub törəyəcək kafər oğullar,
Bu yurdda Serj ilə Robertolar var...

***

Aldıq sorağını iki axçinin,
Vətəndaş olacaq bizim ölkədə.
Bizlərin əliylə milli qeyrətə,
Yamaq vuracaqlar daim bəlkə də.

# ÇEŞİDLİLƏR

## NƏ DEYİM VALLAH...

O gün elan oxudum, ehtiyac var işçiyə,
Tez yır-yığış eləyib, mən də çıxdım eşiyə.
Gəlib ərizə verdim, elan verən guşəyə -
Dedim işə alın siz, elandakı peşəyə,
Soruşdular: ingilis, bəs nə deyir eşşəyə?

Öz dilimi bilməyim yaramadı işimə,
Vətən boyda bir qəhər, doldu mənim içimə.
Səndən mühəndis olmaz, yeri fəhlə işinə -
Hər nə desəm layiqdi bu manqurta, küçüyə,
Mən nə bilim ingilis, bəs nə deyir eşşəyə?

Bizim dildə eşşəyin türlü-türlü adı var,
Yurdumun hər yerində boy veribdi sıpalar.
Yenə eşşək olacaq böyüyəndə qoduqlar –
Mən də ulaq sayaraq çox minmişəm eşşəyə,
Hələ bilməm ingilis, bəs nə deyir eşşəyə?

Dədəm, babam bilirəm, "danqi" deyib qanmaza,
İndi sivil "danke"lər, gəlib bizi saymaz a!
Dilin belin qatlayıb, salmışıq bir çıxmaza –
Quruyubdu ağzımda, az qalır ki, tövşüyə,
Mən nə bilim ingilis, bəs nə deyir eşşəyə?

Yurdu taybatay açdıq irişənə, gülənə,
Qonaq bizdə əzizdir, söylədik hər gələnə.
Milyonları sovurduq sarı saçlı gəlinə -
Nədi-nədi bir dəfə, uzanacaq döşəyə,
Mən nə bilim ingilis, bəs nə deyir eşşəyə?

...Bir vaxt möhtac olmuşduq bir
"net"inən bir "yes"ə,
Rus dilin bilməliydi, kim işləmək istəsə.
Dedik ta müstəqilik, milli dildə səs-səsə -
Kimlər vermək istədi, qandal vurduq dilçəyə,
Mən nə bilim ingilis, bəs nə deyir eşşəyə?

## VAR

Təkəbbür qəlbini sarmasın qardaş,
Alnın qırışında yazılanı var.
Səni dingildədir bu gəlhagəlin,
Sabah gethagetlə azalanı var.

Sınanan dostların neçəsi aciz,
Dostluğun yolunda qalmayıb heç iz.
Ramizin dostu var, çəpişdən ucuz,
Məndə siyahıdan pozulanı var.

Dünya dən üyüdər dəyirmanında,
Ağıllı, ağılsız boş xırmanında.
Baş gördük, bu dünya ağırlığında,
Dünya gərdişindən toz olanı var.

Qardaş dediklərim oldu "bacılıq",
Dalaşdıq, küsüşdük yenə barışdıq.
Oğullar becərdik, səfə qarışdıq,
Onların içində "qız" olanı var.

Şairin sözündə çoxalır yalan,
Gözəldə vəfadan danışan zaman.
Bunu ki, söyləyib Fizuli baban,
Hələ də doğruya yozulanı var.

Mən qədər-qismətə hər vaxt inandım,
Oxudum, eşitdim, gördüm, sınadım.
Bəs nəyə lazımdı yersiz inadım,
İnadın sınanı, əziləni var.

Bir arzu dalınca çıxdıqca yola,
Yeni arzularla girdik qol-qola.
Dedim beş-altısı qismətim ola,
Bir deyil, beş deyil, yüz olanı var.

Qardaşım, heç nəyi alma eyninə,
Alarsan, işlərin düşər düyünə.
Ömür bir libasdır, geysən əyninə,
Astar olanı var, üz olanı var.

Çalış ki, vaxtında götür bir səmər,
Zay olar gəncliyin, gedərsən hədər.
Biri gənc yaşında, biri südəmər,
Əcəl kəndirindən üzüləni var.

Sözün məclisinə biz də gəlmişik,
Doğrudur, yerimiz olub dəyişik.
Gözəlin zülfünə şahmar demişik,
Qurbanıq, çalmağa yüz ilanı var.

Dedim az danışım, mətləbim qısa,
Ədəbə sayılmaz kimisə yorsam.
Nə deyim, anlayar oxuyan olsa,
Sözlərin sıraya düzüləni var.

Qədərdən gəlməsə taleyin gülməz,
Nələr yazılıbdır, bir kimsə bilməz.
Deməz bilmədiyi şeyi Əbülfəz,
Dediyi sözlərin düz olanı var.

## KRILOVA MƏKTUB

O sənin yazdığın təmsillərinə,
Bu qoca millətim rast gəlir yenə.
Ruhuna salamlar yoldaş Krılov,
Day təmsil yazanlar deyən qırılıb.
Dedim bir məsnəvi söyləyim sənə,
Sənin o yazdığın təmsillərinə.
Üç ördəkdi, bir balıqdı, bir xərçəng,
“Gözəl” büsat qurubdular, çox qəşəng.
Biri sağır, biri döyür, bir söyür,
Biri “yest”di, biri “net”di, bir buyur.
Balıq bizik, ördək ATƏT, armen xər,
Bol xırmandan hərə bir şeyi istər.

Ötür-ötür, apar-apar, gəl-geti,
Bir məramdır – yurdumuza sünnəti.
Bu üç ördək bir balığı dənləyər,
Hələ durub xərçəngi də yemləyər.
Yerişini itiribdi üç ördək,
Çünki tez-tez aralanır cərcəmək.

***

Hecaların sayını, yenə bir az çoxaldım,
Bu təmsilin dalına mən də belə başladım:
Yenə üçlük yaranıb yurd məsəli həllində,
Yurdumun bütövlüyü üç tərsanın dilində.
İndiyəcən bu işə necə gəldi baxılıb,
Ördək, balıq bir deyil, sayları da çoxalıb.
Neçə ildir tərpənmir bu araba yerindən,
Söylə nə gözləyirsən tərsanın ördəyindən?
Heç olmasa qaz olsa yenə "qa-qa" edərdi
ATƏTin ördəkləri bu qazlardan betərdi.
Yeyib-içib, şellənib qaz yerişi gedirlər,
Hesabıma yığışıb çoxlu var-gəl edirlər.
Bu işdə heç bilinməz nə bir sərhəd, əndazə,
Az qalıb yurd hamısı belə gedə güdazə.
Avropaya nə verir, söyləyin, armen görüm,
Onun burnundan gəlsin ona da verdiklərim.
Mal ətinin zərəri çoxdu balıq ətindən,
Hamı balığa cumur, tutsun onu Xəzərdən.
Yaman ayıq ördəkdir, hərdən cumar Xəzərə,
Çünki çimmək ördəyə verər çoxlu səmərə.
Neçə ördək əliylə bəslənir bircə xərçəng,
Yurdumda çox firavan, yaşarlar rahat, qəşəng.

Yaman dayı sevənmiş yurdumun oğlanları,
Dayısının xətrinə bağlanar el yolları.
Bizimkilər yatağa salanda harsınları,
Görən bilirmi necə olar işin axırı?
Balıq, bizim balıqdır xərçəng bizim deyildir,
Ördək bizim işlərdə daim barmaq işlədir.
...İndi bu ördəkləri qazlamağın vaxtıdır.
Yoxsa bu balıqları tovlamağın vaxtıdır?
Xərçəng bizim bədəndə, gəlin onu kəsəyin,
Hələ düşər toruna tanımayan, bilməyən.
...Bizdə belə şeyləri "at özgənin"... deyirlər
Hansı sözü yazmadım gəlib onu yeyirlər.
Kimdən axı nə umaq, tutaq kimin yaxasın,
Qapı arası qoyur, baş tərpədən, xayasın!

## HƏRDƏMXƏYAL

Ta bizim də görəcəkli işlərin,
Gündən-günə yenilənir sırası.
Sən həmişə qismətinə ləngidin,
Bizə çatdı bostanların urası.

Yaşamağa beş-on qəpik pul ara,
Bəlkə biz də adam olaq el ara...
Bənzəri var çayda axan sulara,
Qızıl olan qara neftin qarası.

Ha deyirsən, bir qalxasan yerindən,
İnhisarı dərhal gəlir birindən.
Qismət dedim, Allahımız verəndən,
Bizə çatan üzümüzün qarası.

Bir heyi yox zəncirləri gəmirə,
İnsan oğlu tabe olub əmirə.
Haqqı tələb etməsini demirəm,
İflic olub şərəfinin yarısı.

Çoxu qurub güzəranı yalanda,
Hər bir yerdə, hər bir tində, dalanda.
İmtiyaz sahibi elin yolunda,
Daş-divardır, keçilməz bir barısı...

## HESAB-KİAB

Bir yalandır, bir hiylədir, ilğımdır,
Mənim bütün işlərimin kökündə:
Yalan dedik bu dünyaya əzəldən,
Gözümüzü gülzarına dikəndə.
Adəm babam yaman uydu nəfsinə,
İştahası bir almanı çəkəndə.
Həvva nənəm oğurladı saqqızı,
Adəm baba bığına əl çəkəndə.
İbrət ala bilmədilər nədənsə,
Əkdikləri qardaş qanın tökəndə.
Ruhumuz da inciyənə oxşamaz,
Günahsızı biz kəfənə bükəndə.
Gönümüzdən qalın olub kölgəsi,
Dilimizi qarnımıza çəkəndə.
Kasıbların mal-qarası qısırdır,
İmkanlısan, pendir verər təkən də!
Dünya malı lap əvvəldən haramdır,

Başqasının varına göz dikəndə.
Nə artırıb, nə qazandın, eloğlu,
Eyş-işrətlə öz keyfini çəkəndə?
Çalışmadıq abad olsun evimiz,
Bu kafirlər divarımı sökəndə.
Hələ bir az davam edə bilərdim,
Deyərlər ki, xərifləyib səksəndə...

## MƏLİKMƏMMƏD NAĞILI

Şəxsi fikri olanları sevmədən,
Uzaq tutduq elimizdən, obadan.
Pisikdirib qaçaq saldıq evindən,
Elədilər başqa yurdu abadan...

Düymə ilə biz idarə olana,
Baxıb yenə dirəndik bir dalana.
Kapitalı çevirmədik insana,
Əlimizdə dəryaz ilə yabadan...

Heçə sayıb tarixin hər gerçəyin,
Qan gəlincə sorduq yurdun əmcəyin.
Dostumuzun, bir anası göyçəyin,
Diktəsidir tərəqqini yubadan...

Ana yurdu oğul qanla suvardı,
Məmur dedi nə olsun ki, cuvardı...
Ümidləri lap kökündən qopardı,
Bundan sonra nə xeyir var çabadan[1]...

**1 Çaba – cəhd, çalışmaq**

Fərqi çoxdur bir var ilə yoxluğun,
Azacıq pul, arzusudur çoxluğun.
Ümid edib qarnımızın toxluğun
Diləmişik yaxşı keçən havadan...

Ləkə vurduq bir az önə çıxana,
Kimlər ki, bir yol göstərir axına.
Gəl tüpürək lap varına, yoxuna,
Kimlərin ki, xəbəri yox tobadan[2]...

Çöp də düşmür gözlərinə qorxanın,
Şahidiyik pis mirasın, sovxanın.
Pambıq ilə başın kəsdik çoxunun,
Heç olmadı ruhlarını oyadan...

Yazdığımız Məlikməmməd nağılı,
Ayrı yerə aparacaq ağılı.
Çox olacaq dediyimin cığalı,
Gülbeçələr cükküldəşər yuvadan...

## KAMRAN MÖVSÜMOV 69

Allah qoysa rəqəm yerin sən dəyiş,
Doxsana çıx, sən yüzə çıx, a yeznə.
Mənim bir az sağlamlığım zəifdir,
Sumqayıta, gəl bizə çıx, a yeznə.
Sağlam canın arzusudur hamının,
Neçə-neçə sən yaza çıx, a yeznə.
Nəvələrin ürəyincə böyüsün,

**2 Toba – tövbə**

Toylarında bir saz, aşıq, a yeznə.
Nə diləyim ürəyincə olsun ki,
Diləyinə bizlər açıq, a yeznə.
Şəfaya ver hərdən qulaq burması
Toy-büsatdan bir söz açaq, a yeznə!
Sən inşallah rəqəm yerin bir dəyiş,
Doxsana çıx, sən yüzə çıx, a yeznə!

## AYAZ ARABAÇIYA

Gözümüzdə islanıb, silkələdin ruhumu,
Sən çox yaxşı görürsən, boy verən yad toxumu.
Bizim yolda daş-kəsək, bir-birinin qohumu,
Hər bir yerdə təklənən həqiqətin oğlusan!

İtin oğlu çəkirsə, ayağından-əlindən,
Bil ki, əmələ gəlib qonşuların belindən.
Millət nələr çəkmədi, özgələrin dölündən
Milli ruha bələnmiş, şah qeyrətin oğlusan!

Burda bir əndazə var, söz sənəti belədir,
Çoxunun söylədiyi, qaya üstü yelədir.
Çoxu əmir qələmi, aradabir yellədir,
Sən sözə el qoyduğu, bir hörmətin oğlusan!

Elə söz var söyləsəm, adımıza yaraşmaz,
Xalqımın "şairi" var, qələmindən kar aşmaz.
Millət ölüb dirilir, yan qaldırıb qarışmaz,
Allah baxıb üzümə, bu millətin oğlusan!

Nə olsun, bir çoxları bəyənməyir sözünü,
Çünki sənin qələmin hey söyləyir düzünü.
Bircə şah kəlmən ilə, otararsan yüzünü,
Arabaçı olsan da, bu sənətin oğlusan!

Bu bez bizim deyil ki, ha baxsaq da qırağa,
Milli ruha söykənən, sözə qoyur qadağa.
Sən də cəngavər kimi, sinə verdin qabağa,
Heç kimdən görmədiyim, hərəkətin oğlusan!

Meşə çaqqalsız olmur, dərələr də tülküsüz,
Bir çoxları söz yazır, əndrabadi, ülgüsüz...
Sözlərində həqiqət, heç qorxusuz, hürküsüz,
Haqqı demək vəzifən, zərurətin oğlusan.

## AQİL ABBASA

Mənim bu sözümü dəftərinə yaz,
Doğrudan aqilsən, ay Aqil Abbas!

Məktubdur, yolladım Sizin ünvana,
Hədiyyəm sənin tək bir el oğluna.
O, özü yardımdır yaratdığına –
Allahın adını başın üstən as,
Doğrudan aqilsən, ay Aqil Abbas!

Düşmənin başına "Dolu" tək yağdın,
Döyüş salnaməsin yaşadın, yazdın.
Onsuz da tarixə yazılıb adın –

Xalqa xidmətini unutmaq olmaz,
Doğrudan aqilsən, ay Aqil Abbas!

Hamı sənin kimi olsa nə vardı,
Düşmənin şəstini əzib, qırardı.
Biz nəyə sadağa verdik bu yurdu –
Axirət dünyada cənnətsiz olmaz,
Doğrudan aqilsən, ay Aqil Abbas!

Bir təməli ironidir sözünün,
Danışanda dilin deyir düzünü!
Tərəzidə sən çəkərsən yüzünü –
Doğrudur, bu işdə pərsəngsiz olmaz,
Doğrudan aqilsən, ay Aqil Abbas!

Çox zillət çəkmişəm yersiz tənədən,
Onunçün mühitdən dolandım gendən.
İbrətim sizlərdən, eşitdiyimdən –
Dədədən, babadan qalmadır miras,
Doğrudan aqilsən, ay Aqil Abbas!

## ELBURUS QƏMGİN – 70

Gəlişinə heyran oldum bu yazın,
Daim gəlsin şeirlərin, avazın.
Üzrxahlıq yerinədir bu yazım,
Ay Elburus, qəmgin olma, gəlməsəm...

Söz sahibi, ustadların içində,
Ad, soy adın sayılandı, keçəndi.
Görüşməyi arzulardım haçandı,
Ay Elburus, qəmgin olma, gəlməsəm...

Saf, təmizdir ürəyimdə duyğular,
Şəxsinizə hörmətim var, sayğılar.
Bir az sağlıq, bir az başqa qayğılar...
Ay Elburus, qəmgin olma, gəlməsəm...

Dost-tanışlar yığılacaq nə qədər,
Yəqin bizim yerimiz də görünər...
Görüşümüz baş tutmadı bu səfər,
Ay Elburus, qəmgin olma, gəlməsəm...

Dünyalarca istəyirəm xətrini,
Sevə-sevə oxuyuram sətrini.
Nəzərə al Əbülfəzin "dərd"ini,
Ay Elburus, qəmgin olma, gəlməsəm...

## QAL OĞLU QAL...

Başqa millət tərəqqidə yarışda,
Biz kənardan baxa-baxa qalmışıq.
Növbə tutmaq yaraşmayır şəxsimə,
Basməmmədi, soxa-soxa qalmışıq.
Başqasının haqqın yemək haramdır,
Bizlər onu tıxa-tıxa qalmışıq.
Nənələrim xanım-xatın biriydi,

Haykanuşa baxa-baxa qalmışıq.
İsmət, iffət ölçüsüdür geyimlər,
Biz onlardan çıxa-çıxa qalmışıq.
Müxalifət anamıza bənzəyir,
Nə eləsək "yox ha, yox ha" qalmışıq.
Hər daşında, hər qayada izim var.
Vuruşaraq, çıxa-çıxa, almışıq.
Qazi haqqı, şəhid haqqı yeyilməz,
Məmurlardan qorxa-qorxa qalmışıq.
Dünyamıza gələ bilmir ədalət,
Yollarına baxa-baxa qalmışıq.
Şuşa bizim, biz can verib almışıq,
Xankəndiyə baxa-baxa qalmışıq.
Ayə birdən nəsə yaddan çıxar ey,
Ömür boyu çıxa-çıxa qalmışıq.
S.A. Səbrimizə sınaq çəkmə, kasası,
Dola-dola, daşa-daşa qalmışıq...

## SABİRƏ (RUHUNA FATİHƏ)

Ha deyirik arxı yaxşı tullanaq,
Çırmanmamış, qarşımıza çay gəlir.
Qızışmağı saxlamarıq sonraya,
Ta demirik yazdan sonra yay gəlir.

İş başına iş bilməzlər keçəndən,
İş biləni soyutmuşuq işindən.
Bax beləcə ləngidik el köçündən,
El bir ağızdan: vay dədəm, vay gəlir.

Çox axtardım mən bu işin çarasın,
İncələdim olayların sırasın.
Altmış beşdi üzümüzün "qarası",
Başqasına həştad, doxsan say gəlir.

Hələ çox şey yatmayır ha, dilimə,
Yoxsa bunu mən yayardım aləmə.
Gör nə qədər alışmışıq zülümə,
Naqis soydan sonra, yeni soy gəlir.

Vərəqlədim tarixin çox varağın,
İşimizin yaxşı yönü var axı!
Üzümüzə qayıdan bu torpağın,
Ahı bizə bayram gəlir, toy gəlir.

Həlləm-qəlləm özünü çox gözlətmir,
İş düzəldən təmənnasız düzəltmir.
Ta qozbeli, heç qəbir də düzəltmir,
Düzəlmirsə qəbirdən də vay gəlir...

## AYAĞIM

Yetmiş ildir dayanmışam üstündə,
Hara desəm aparandı, ayağım.
Çox çəkibdi başımızın zəhmətin,
Çarəsini tapar anda, ayağım.

Yetmiş dedim, üstə gəldi üçün də,
Ömür yolu sirat adlı köçündə.
Bu dünyadan dar məzara köçəndə,
Yeriməyin nagümandı, ayağım...

Baş dediyim kəm olubdu ağıldan,
Az anladım bu dünyadan-nağıldan.
Yoldaş olmaz şeytan adlı cığaldan,
Əlin üzüb qoparandı, ayağım...

Haqqı dedi, ona döndü dilimiz,
Doğrunu da daim dedi dəlimiz.
Bu dünyadan üzüləndə əlimiz,
Öz köçünü aparandı, ayağım.

Atdığı addımlar ömrün sonuna,
Yorulub, çəkilib girməz qınına.
Ay Əbülfəz, ayağını qınama,
Yorğan boyu uzanandı, ayağım...

## ÇƏKİRƏM

Pis qonşuyla xalaxətri sevginin,
Bir ömürdür mən altını çəkirəm.
Halal-haram məzənnəli bir ömür,
Qıl körpüsün, sıratını çəkirəm.
Yurd uğrunda hər bir zaman döyüşə,
Koroğlunun Qıratını çəkirəm.
Bünövrəsi tərs qoyulan dünyanın,
Ağrı-acı və xıltını çəkirəm.
Diyircəkli yastıqları yeyilib,
Hər qaykanı, hər boltunu çəkirəm
Deyərsən ki, uyğun deyil belə şey,
İlğım kimi, parıltını çəkirəm.

Haqqı danan nadürüstün boynuna,
Qırx dörd günə bir baltanı çəkirəm.
Kafər qarı ha bərkitsin donunu,
İlməsini, həm qaytanı çəkirəm.
Qonşulardan yarımadıq nədənsə,
Əsli-kökü bir moltanı, çəkirəm.
Bizim şərtə uymadıqca qonaqlar,
Peysərində bir xaltanı çəkirəm.
Yol deyərək kimdi cızan xəritə,
Haqqa tapın, düz yol tanı, çəkirəm.
Daha da çox baş aparsa kafərlər,
Qulaq sayan o Sultanı çəkirəm.
...Demirəm ki, şeir yaza bilirəm,
Qələm haqqı, mən altını çəkirəm...
Rəsm eləsən mənəm-mənəm deyəni,
Şəxs yerinə qaraltımı çəkirəm...

## CAZİBƏ

Birinin başına bir daş düşəndə,
Alın yazısıdır, bu bir olacaq.
Birinin başına alma düşəndə,
Dünya qəbul etdi, qanun olacaq.

Yüz yol lənət dedi bərəkətinə,
O daş dəyən başda yer çoxdur aha.
Almanın ağacdan hərəkətinə,
Qanun söyləyəcək başqa bir düha...

Nizami babamın yazdığı qanun,
Aldı qiymətini şeriyyətində.
Yazın, başqasının adına, olsun,
Dünya çoxdan pozuq bəkarətində...

## GƏZİŞMƏLƏR

Dünya üzrə naqislər, mən biləni çoxdular,
Bizimkinə bənzəyən bu dünyada varmola?!
Hamı sevər, əzizlər, doğma dilin millətin,
Bizim kimi başqaya, döndərəni varmola?!

Dünya dili içində, dilim şirindən şirin,
Başqasının dilində "Ahəng qanun" varmola?!
"İkimiz bir köynəkdə"... söylər idi babalar,
Sözə bax ey deyir ki, yaxası da darmola?!

Bülbülləri salmışıq, çoxdandır ki, qəfəsə,
Gülə qoyduq adını, bu da gərək xarmola?!
Onunçün də dəyişib, müğənnilər nəğməni,
"Cəh-cəh"indən bəllidir, ya qarğadır, sarmola?!

Yanımızdan ötəndən, tutmuşuq biz dölləri,
Bizim mələzdən biri, görən bizə yarmola?!
Utanmasan nə var ki, oynamağa, deyirlər,
Oynayanın da gərək, üzündə bir armola?!

Yüz ölçüb bir biçmişik, bizlər bir iş görəndə,
Məsləhətli qiyafət, əynimizə darmola?!

Yurdumuz çox genişdir, payladıqca qurtarmır,
Qanmaz olan qonşumuz, adam deyil, xərmola?!
İslanmışıq, qorxumuz, daha yoxdur yağışdan,
Bundan sonrakı yağmur, leysan ola, qarmola?!

## HALALLIQ MƏZƏNNƏSİ

Şəhid oğlun, şəhid qızın,
Ruhu perikdir olmazın.
Çəkirik tərsanın nazın –
Bizə halal olan deyil.

İmana, dinə gəlmirik,
Heç utanıb bir ölmürük.
Ar satıb namus yeyirik –
Bizə halal olan deyil.

Dili qəfəsə qoymuruq,
Haram yeyib heç doymuruq.
Kimdən halallıq umuruq –
Bizə halal olan deyil.

Düşmən öndə baş aşağı,
Söndü çox evin çırağı.
Haqq etmirik yaşamağı –
Bizə halal olan deyil.

Üz tutur fağır, füqəra,
Son çarəsi intihara.
Dörd yüz mini bir nahara –
Bizə halal olan deyil.

Lazım bura gələ-gələ,
Otur ili verdik yelə...
Anamızın südü belə -
Bizə halal olan deyil.

## AYIBDIR

Ayıb, ayıb işlərin anası qoca dünya
Yalanların üstündə durubsan qoca dünya
Ay dili ilan kimi, dili bir haça dünya
Üzün bir, dilin iki, bu sifətdən ayıbdır.

Qulağın söz arayır, daima şeşəlikdə
Dilin də əl çəkməyir, ən qədim peşəlikdən.
Kişi sözü deməklə düşərsən kişilikdən? –
Üztündə gəzdirdiyin o sünnətdən ayıbdır.

Bizdə bir kişi sözü var, sizdə iki standart,
Həftəbaşı namə yazır, ya Strasburq,
ya Ştutqart.
Millət deyir yaxasından bir yapış, onun, dart,
Yanaşım üsulundan, siyasətdən ayıbdır.

Sən Taleyran nəvəsi, mən də ki, Nəsrəddinin,
Təməlində yanlış var, səndəki kafər dilin.
Hər yalanın həsrətin, indi də çəkər dilin,
Doğru deyə bilmirsən, həqiqətdən ayıbdır.

**P.S. və ya S.A.**

Yazıq, qoca millətim,
Bu nə gündü, güzardı.
Hər tərəfin gülüstan,
Şəhid dolu məzardı.
Kimi çəksən irəli,
Sanır Vətən bazardı.
Mənafenin millisi,
Daim olur gözardı.
Ziyalının ziyası,
Çox solğundur, bozardı.
Nə şairin şairdi,
Nə yazarın yazardı!
Bu bir neçə kəlməni,
Siz də sayın sözardı...

Əbülfəz şeir yazdı,
Yaza-yaza "qızardı".
S.A. möhürbənd Ramiz İsmayılındır.

## İKİ SƏRBƏST

Xanhüseyn müəllimin
Məlum nitqinə bənzəyir
Sən yazdığın şeir.
Elimin oğlu,
Elə yaz ki, anan deməsin
Ay oğul, bu nədir?!

Karvan əhli olmaq üçün
Sarvana yaxın olmalısan.
Zamanla necə adlansa da
Hər dövr üçün mahiyyət eynidir:
Üzəngi tutan,
Quşqun bağlayan,
Boşqab yalayan...!

## TƏFTİŞ

Bizim işin hər tərəfi "maraqlı",
Bircə-bircə təftiş edib yoxladıq:
Fürsət tapan el malını yağmalar,
Kim deyir ki, gələn nəslə saxladıq?

Məmur xidmət eləməyir millətə,
Hərçənd onu göz üstündə saxladıq.
Kimi məmur elədisə millətim,
Çalıb-çapdı milyardları... yuxladıq.

Şəhid olur kasıb evdən çıxanlar,
Tabutuna bir bayrağı bağladıq.
Ocağımın başındadır düşmənim,
Qızın alıb evdə xanım saxladıq.

Yerin altı, yerin üstü qızıldı,
Tullantını dağ gölündə saxladıq.
Nə yaxşı ki, ayaq üstə qalmışıq,
Torpaq belə, ayaq altda laxladı.

Neçə yüz il başımızı kəsəni,
Evimizdə "sülhməramlı" saxladıq.
Ta kasıbın olanından, neynəyək,
Sizə neçə müşkülləri saxladıq.

Neçə-neçə qoşa hörgüc dəvəni,
Boz eşşəyin quyruğuna bağladıq
Bu nəfsimiz kabab iyi çəkəndə,
Biz də gedib eşşəkləri dağladıq.

Çörəyimiz küt gedəndə səbəbsiz,
Yuxaların qırağını yağladıq.
Yazar-pozar ayrı cürə düşünür,
"Düşüncənin yeni tərzin" saxladıq.

S.A. İt əl çəkir, motal yaxa buraxmır,
Güzəranın bu halına ağladıq...

## MƏKTƏBƏ GEDƏN NƏVƏMƏ

Eşitdim məktəbə gedirsən övlad,
Sərim ayağına arzularımı.
Sənə bir "uğurlu olsun"dan başqa,
Bu baban başqa şey, de arzularmı?

Yaxşı oxumaqdı sənə vəsiyyət,
Yolun tut atanın, dayılarının.
Yaxşı oxumağa sən çək "əziyyət",
Gözləri yaşarsın babalarının.

Nə olsun qürbətə düşdü yolunuz,
Evimiz deyilmi bu qoca dünya.
Sən adı müqəddəs gözəl oğlumuz,
Kəsməz aramızı o boyda dərya!

Sən orda Vətənin bir fidanısan,
Böyü, təmsil elə doğma Vətəni.
Elm oxu və öyrən, elm adamısan,
Çox şeyə bir ümid bilirik səni!

Bacının daima sən tut əlindən,
Demə mən oğlanam, o da bir qızdı.
Bizlər baş açmarıq övlad fərqindən,
Qızları oxutmaq bir arzumuzdu!

## QEYRİ SƏLİSDİR

Dövrü-qədimdən babam,
Saxlar qapıda tula.
Qurda, quşa oğruya,
Hürərdi bir qab yala.

Bizim geniş qapıda,
Yal verdik çox hürənə.
Az qalmışdı udalar,
Bu yurdu yal yerinə.

Bizi tarix təkəri,
Silkələdi, ayıltdı.

Gördük yurdun düşməni,
Bir ayıdır, bir itdi.

Ayını əhlil etmək,
Olar, niyə olmasın?!
Tarix yalaq itini,
Öz qıçına bağlasın.

Bu məsəlin həllini,
Kim almasa "vecinə".
Onda dönüb baxsınlar,
Boz qurdun bir gücünə!...

## KİTABIN İÇİNDƏKİLƏR:

1. Qoşa sətirlər ........................................................9
2. Üç kəlmələr ......................................................33
3. Dörd kəlmələr...................................................47
4. Nə deyim vallah ...............................................89
5. Var ....................................................................90
6. Krılova məktub.................................................92
7. Hərdəmxəyal.....................................................94
8. Hesab-kitab .......................................................95
9. Məlikməmməd nağılı .......................................96
10. Kamran Mövsümov 69 ..................................97
11. Ayaz Arabaçıya...............................................98
12. Aqil Abbasa.....................................................99
13. Elburus Qəmgin ...........................................100
14. Qal oğlu qal...................................................101
15. Sabirə (ruhuna fatihə)..................................102
16. Ayağım ..........................................................103
17. Çəkirəm .........................................................104
18. Gəzişmələr.....................................................106
19. Halallıq məzənnəsi .......................................107
20. Ayıbdır...........................................................108
21. P.S. və ya S.A. ...............................................109
22. İki sərbəst .....................................................109
23. Təftiş..............................................................110
24. Məktəbə gedən nəvəmə ..............................111
25. Qeyri səlisdir.................................................112

**Əbülfəz Əhməd**
**(Əhmədov Əbülfəz Əli oğlu)**

**“Üç-dörd kəlmə”**

**Azərbaycan dilində**


| | |
|---|---|
| Texniki redaktor: | Əlibəy Azəri |
| Kompüter tərtibatı: | Səbuhi Şirinov |
| Dizayner: | Fariz Məhərrəmov |
| Korrektor: | İlahə Ömərova |

Kitab hazır depozitivlərdən istifadə edilərək
“MAARİF” nəşriyyatının mətbəəsində çap edilmişdir.

Çapa imzalanmışdır: 05.12.2023
Kitabın formatı: 60x84; 1/16.
Həcm: 7,25 ç.v.;
Tiraj: 100
Ünvan: Mətbuat prospekti, 529-cu məh.